# QURANIN NURU SATANİZMİ YOX ETDİ

... şeytanın addım izləri ilə getməyin! O, sizin açıq-aşkar düşməninizdir.

(Bəqərə surəsi, 168)

HARUN YƏHYA

# MÜNDƏRİCAT

Giriş: Satanizm təhlükəsini tanımaq

Quranda şeytanın tərəfdarları

Şeytana tapınanların tarixi

Satanist əxlaq

Nəticə: Şeytanın hiyləsi zəifdir

Təkamül yanılması

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə

etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# GİRİŞ
## Satanizm təhlükəsini tanımaq

Keçmişi 1700-cü illərə əsaslanan satanizm son illərdə şiddət, vəhşilik və intihar hadisələri ilə bir daha gündəmə gəldi. Satanistlərin özlərini təsvir etmək üçün istifadə etdikləri ifadələr, həyata baxış aspektləri, müdafiə etdikləri dəyərlər, qan və vəhşiliklə dolu dünyaları ilk əvvəl insanlara inanılmaz kimi gəlsə də, yaşanan hadisələr bu azğın cərəyanın gedərək yayılan təhlükə olduğunu ortaya çıxardı.

Ürküdücü makiyaj və paltarlarıyla özlərini satanist olaraq zənn edən kəslər ilə, mətbuatda tez-tez yer alan qanlı ayinlər, qətl edilən heyvanlar, işgəncə görən insanlar, təcavüz hadisələri və intiharlarla bağlı xəbərlər bir yerə gətirildiyində ortaya dəhşət verici bir mənzərə çıxır. Ancaq əsl heyrətverici  olan insanların belə bir həyatı və düşüncəni saxta bir "din" olaraq mənimsəyə bilməsidir. Bəs necə olur ki, bir qisim insanlar, pis olmağı, pislik etməyi, heyvanlara və ya insanlara acı çəkdirməyi, qaranlıq, qorxu dolu dünyada yaşamağı özlərinə həyat məqsədi və "din" olaraq mənimsədə bilirlər? Bir çox insan bu sualın cavabı ilə maraqlanır, amma cavabı səhv yerlərdə axtarır. Satanizmin necə inkişaf etdiyini və bu qədər geniş kütlələri necə təsiri altına ala bildiyini anlamaq üçün əvvəlcə bu qaranlıq din bütün istiqamətləriylə təsbit edilməlidir. Bu azğın dinin ardındakı fəlsəfəni ortaya çıxarmaq, insanların belə bir azğınlığı necə qəbul etdiklərini anlaya bilmək üçün şərtdir. Çünki satanizmin mənbəyi, sanıldığı kimi yalnız bəzi gənclərin psixoloji nizamsızlığı deyil, onları bu nizamsızlıqlara sürüyən fəlsəfədir. Və bu fəlsəfə, -kitabın sonrakı səhifələrində təfərrüatları və dəlilləri ilə görəcəyimiz kimi-insanı heyvan növü olaraq görən və "təbiət mərhəmətsizdir, sən də mərhəmətsiz olmalısan" mesajını verən sosial darvinizmdir. Bu səbəbdən satanizmi araşdırarkən bu gerçək gözardı edilməməlidir.

Bu kitabda satanizmi bütün istiqamətləriylə araşdıracaq, şiddəti və vəhşiliyi dini ritual halına gətirən və qanlı cinayətləri ibadət olaraq görən bu fəlsəfənin bu qədər yayılmasının səbəbləri üzərində dayanacağıq. Kitab boyunca da görəcəyiniz kimi, satanizmin çıxış nöqtəsi din əxlaqına qarşı olmalarıdır. Bu səbəbdən bu azğınlığın tərəfdarları din əxlaqından uzaq yetişmiş və materialist cərəyanların təsiri altında qalmış kəslərdir. Satanizmin yayıldığı və xüsusilə də gənc insanlar üzərində təsiredici olduğu gerçəkdir. Ancaq satanizmin həll yolu olmayan kimi göstərilməsi də çox böyük səhvdir. Halbuki bu azğın axınla mübarizə çox asandır və Quran əxlaqı, gəncləri satanizmin əlindən xilas edəcək tək yoldur. Quranın nuru satanizmi yox edəcək və Allahın izni ilə işıqlı, sevgi və sülh dolu bir dünya meydana gətirəcək.

# Quranda şeytanın tərəfdarları

Son illərdə müxtəlif ölkələrdə bir-birinin ardınca həyata keçirilən satanist cinayətlər və müxtəlif intihar hadisələri "satanizm nədir?" sualını bir daha dünya gündəminə çıxardı. Ancaq satanizm üzərində aparılan araşdırmalar, müzakirələr və yazılan yazılar müəyyən çərçivədən kənara çıxa bilmədi. Satanizm çox zaman psixoloji istiqamətdən problemləri olan, ailələri və ətrafları ilə ünsiyyət qura bilməyən gənclər arasında məşhur, qəribə axın olaraq göstərildi. Halbuki satanizmi bu qədər bəsit qəbul etmək, şiddət tərəfdarı bu azğın dini bütün istiqamətləriylə insanlara tanıtmamaq çox böyük səhvdir. Bu istiqamətdə yazılan və deyilənlərin əksinə satanizm tarixi çox keçmişlərə əsaslanan, ardında qaranlıq fəlsəfə saxlayan, dünya gələcəyinə dair hədəfləri olan, qaranlıq "kilsəsi", minlərlə tərəfdarı və yazılı resursları ilə 2000-ci illərin ən təhlükəli formalaşmalarından biridir.

Əvvəlcə bunu ifadə etmək lazımdır ki, satanistlər arasında da müəyyən təcrübə və fikirlərdə fərqlər mövcuddur. Bəzən bu fərqlər satanizmin nəyi müdafiə etdiyinin başa düşülməsində səhv düşüncələrə səbəb ola bilir. Məsələn, bəzi satanistlər, dünyanı var edənin şeytan olduğu kimi azğın bir düşüncəyə inanıb onun istəklərini yerinə yetirməyi məsuliyyət olaraq görərkən (yezidilər bu qrupa daxil edilə bilər), bəziləri də şeytanı yalnız simvolik anlayış olaraq görər, öz istəklərini ilahlaşdırarlar. Əlbəttə bu fərqlər bəhs edilən fəlsəfənin azğın olduğu həqiqətini dəyişdirmir. Üstəlik, hər nə qədər bütün satanistlər eyni təşkilat altında birləşmiş deyillərsə də, bütün satanistlərin həmfikir olduğu təməl nöqtələr vardır və bu nöqtələr satanistlərin öz qaynaqlarında bu şəkildə yekunlaşdırılır:

*Satanistlərin şeytani meyilləri vardır və bu mənada eynilə şeytan kimidirlər. Əxlaq qaydalarına qarşı gəlmək, qürur, etiraz, düşmənçilik kimi xüsusiyyətlərə sahibdirlər* [1].

Göründüyü kimi, bu azğın cərəyanın əsl çıxış nöqtəsi, şeytanı və bütün şeytani xüsusiyyətləri özünə yol göstərici olaraq qəbul etməsidir.

Kitabın sonrakı hissələrində dünya üzərində gün keçdikcə daha çox tərəfdar toplayan satanizmin təməl dayaqları üzərində dayanıb satanizmin qısa tarixini araşdıracağıq. Bu hissədə isə satanizmi daha yaxşı anlaya bilmək üçün, Qurandan ayələrlə şeytanı və şeytanın təmsil etdiyi zehniyyətə nəzər salacağıq.

Satanizm mövzusunu nəzərdən keçirərkən əvvəlcə üzərində dayanılmalı olan xüsus, satanistlərin əslində ateist və materialist olduqları, yəni yalnız maddənin varlığına inandıqlarıdır. Satanistlərin məntiqini araşdırarkən bunun üzərində xüsusilə dayanmaq lazımdır. Satanistlər Allahın varlığını və Quranda varlıqları bildirilən cin, mələk kimi metafizik varlıqları da inkar edərlər. Bu səbəbdən şeytanın varlığına da inanmırlar. Şeytan onlar üçün din düşmənliyinin simvoludur.

Buna baxmayaraq satanistlər simvol olaraq gördükləri şeytanı özlərinə ilah seçmişlər. Bunun təməlində azğın ideologiyalarını və rituallarını yalançı din kimi təqdim etmək məqsədi vardır. Öz batil qaydaları çərçivəsində şeytana ibadət edir, qəbilə liderləri tərəfindən təyin olunan mərasimlər yerinə yetirmək üçün müxtəlif azğın mərasimlər təşkil edirlər. Beləcə simvolları, paltarları, qaydaları və ayinləriylə şeytani din meydana gətirirlər.

Satanistlər hər sözlərində şeytanı ucaldar, ondan kömək istəyər və ondan gələn əmrlərə görə hərəkət etdiklərini söyləyərlər. Xüsusilə də qəbilə liderlərinin şeytanla davamlı əlaqə içində olduğuna, onunla danışdığına, ondan əmrlər aldığına inanılar. Yeni satanist olan biri şeytanla danışdığına inandığı bu liderə qarşı böyük bağlılıq göstərər və onun hər söylədiyini əskiksiz yerinə yetirər. Necə ki, son illərdə tez-tez rast gəlinən satanist cinayətlərdə "şeytandan əmr aldım, o səbəblə öldürdüm" deyərək özünü müdafiə edən ya da intihar etməzdən əvvəl "şeytan intihar etməyimi istəyir" şəklində qeyd qoyan şəxslərə tez-tez rast gəlinir.

İnsanlarla şeytan arasında bu əlaqə Quranda çox ətraflı olaraq təsvir edilir. Allah **"... Onlar o hər üsyankar şeytana sitayiş edirlər." (Nisa surəsi, 117)** ayəsiylə insanları xəbərdar etmiş, şeytanın açıq-aşkar bir düşmən olduğunu Quranda dəfələrlə ifadə etmişdir:

**Ey Adəm övladları! Məgər Mən sizə buyurmadımmı ki, şeytana ibadət etməyin, o sizin açıq-aydın düşməninizdir. (Yasin surəsi, 60)**

Başqa ayələrdə də, hz. İbrahimin, atasına bu şəkildə bir nəsihət etdiyi bildirilir:

**Atacan! Şeytana ibadət etmə! Həqiqətən, şeytan Mərhəmətli Allaha çox asi oldu. Atacan! Qorxuram ki, Mərhəmətli Allahdan sənə bir əzab toxunsun və beləcə, şeytana yoldaş olasan". (Məryəm surəsi, 44-45)**

Yuxarıdakı ayələrdə keçən "şeytana qulluq etmək" anlayışı son dərəcə əhəmiyyətlidir. Çünki satanistlərin bütün sənədlərində "şeytana ibadət etmək, şeytanla əlaqə yaratmaq, şeytanın istəklərini yerinə yetirmək" kimi ifadələri tez-tez görmək mümkündür. Ancaq Allahı inkar edib, şeytanı ilah qəbul edən və bütün həyatını şeytanın istəklərinə görə quran insanlara Allahın çox böyük vədi vardır: Sonsuz cəhənnəm əzabı. Allah şeytana, onun və ona tabe olan insanların sonunu belə bildirmişdir:

**... Onlardan hər kəs sənin ardınca getsə, əlbəttə, Cəhənnəmi sizin hamınızla dolduracağam. (Əraf surəsi, 18)**

## Şeytanın xüsusiyyətləri

Allah Quranda şeytanı və şeytanın tərəfdarlarını müxtəlif xüsusiyyətləriylə bizlərə tanıdır. Quranda şeytan, ilk insan olan hz. Adəmdən bu yana bütün insanları Allah yolundan azdırmaq üçün səy göstərən varlıqlar olaraq bəhs edilir. Şeytan, "uzaq düşən, uzaqlaşan" mənasındadır. Sözün ərəbcə mənşəyi eyni zamanda, "qəzəbdən alışıb-yanmaq, işə yaramaz hala gəlmək" mənalarını da daşıyır. İblis isə bütün şeytanların və şeytani fəaliyyətlərin lideridir. İblisin lüğəvi mənası da, "xeyir və xoşbəxtlikdən ümid kəsmiş olmaqdan qaynaqlanan kədər və üzülmək, ümidsizlik və peşmanlıqla pərişan olmaq" mənaları daşıyır. [2]

Allah hz. Adəmi yaratdığı zaman mələklərə ona səcdə etmələrini əmr etmiş, bütün mələklər bu əmrə itaət edərkən, İblis üsyan etmiş və itaətsizliyi səbəbiylə Allahın hüzurundan qovulmuşdur. Ayələrdə İblisin itaətsizliyi bu şəkildə bildirilir:

**Bir zaman sənin Rəbbin mələklərə belə demişdi: "Mən palçıqdan bir insan yaradacağam. Mən ona surət verib Öz ruhumdan üfürdüyüm zaman ona səcdə edin!" Mələklərin hamısı birlikdə səcdə etdi, yalnız İblisdən başqa! O təkəbbür göstərdi və kafirlərdən oldu. Allah dedi: "Ey İblis! Sənə Mənim iki əlimlə yaratdığıma səcdə etməyə mane olan nə idi? Təkəbbür göstərdin, böyüklərdənmi olmuşdun? (Sad surəsi, 71-75)**

Başqa ayələrdə isə, İblisin bu üsyanının təməlində öz ağlına görə qürur və təkəbbür olduğu, insanı özündən daha aşağı gördüyü üçün üsyan etdiyi bildirilmişdir. **"Dedi ki: Mən ondan daha xeyirliyəm. Sən məni oddan, onu isə palçıqdan yaratdın." (Sad surəsi, 76)** ayəsi İblisin, nə qədər nankor və həyasız olduğunu da göstərir. İnsanı, mələkləri, cinləri, şeytanı və bütün kainatı yaradan Allahdır. Allah dilədiyini dilədiyi şəkildə və surətdə yaradır. Yaradılmış olan hər varlıq Rəbbimizə qarşı dərin hörmət göstərməklə məsuldur. Özünü yoxdan var edən və ona hər cür imkanı verən Allaha qulluq etməmək, itaətli davranmamaq əlbəttə çox böyük ağılsızlıq və nankorluqdur. Məhz İblis bu şüursuzluq içində hərəkət edən, bu səbəbdən bütün davranışlarında, sayıqlamalar sərgiləyən varlıqdır. Itaətsizliyi səbəbi ilə cənnətdən qovulan şeytan, özünə ən böyük düşmən olaraq insanı görər və bütün insanları doğru yoldan ayırmaq, onları hər cür

bəlanın içinə sürükləmək üçün Allahdan möhlət istəmişdir. Bu vəziyyət ayələrdə bu şəkildə bildirilmişdir:

**Allah dedi: "Çıx oradan! Sən artıq rəhmətimdən qovulmuşsan! Haqq-hesab gününə qədər lənətim sənin üzərində olacaqdır!" İblis dedi: "Ey Rəbbim! Onlar dirildiləcəkləri günə qədər mənə möhlət ver". Allah dedi: "Sən möhlət verilənlərdənsən – vaxtı məlum olan günə qədər!" İblis dedi: "Sənin qüdrətinə and olsun ki, onların hamısını yoldan çıxaracağam; Təkcə Sənin seçilmiş ixlaslı qullarından başqa!" Allah dedi: "Budur haqq! Mən yalnız haqqı deyirəm! Mən Cəhənnəmi səninlə və sənə tabe olanların hamısı ilə dolduracağam!" (Sad surəsi, 77-85)**

Şeytan bu böyük hədəfini reallaşdırmaq üçün minlərlə ildir fəaliyyətdədir. Bu hiyləgər hərəkətini kainatın və canlılığın sonu olan qiyamət gününə qədər də davam etdirəcək. İnsanlıq tarixi boyunca istisnasız hər kəsə -onları pisliyə çəkmək üçün- yaxınlaşmış, bu mövzuda ayrı-seçkilik etməmişdir. Şeytan insanları yoldan çıxartmaq üçün heç bir xüsusiyyət güdməz. Hər yaşdan, hər statusdan, hər mədəniyyətdən və hər irqdən olan insanı öz yoluna çəkmək üçün çalışar. Fərqli sosial qruplardakı kəsləri, zəngini, kasıbı müxtəlif xarakterlərə sahib insanları təsiri altına almağa çalışar.

Şeytanın fəaliyyətinin miqyasını və insanlar üzərindəki təsirini anlamaq baxımından bu nöqtəni ifadə etməkdə fayda vardır: Şeytan insanı çox yaxşı tanıyar, hər mədəniyyəti, hər ideologiyanı, hər cür fikri bilər. Xüsusilə də insanın nəfsinin istəklərini və zəifliklərini çox yaxşı bilir. Buna görə tələlər hazırlaya, planlar qura bilər. Dünyanın ən ucqar nöqtəsindəki insana qədər istisnasız hər kəsə təsir etməyə çalışar. Buna qarşı olaraq insanların çoxu təhlükənin böyüklüyünün həqiqi mənada fərqinə vara bilməzlər. Çox insan, özünü pisliklərə təhrik edən və cəhənnəmə sürükləmək istəyən şeytana əhəmiyyət vermədən yaşayar. Məhz belə bir vəziyyətdə də şeytanın öz üzərində nə kimi təsir meydana gətirdiyini və necə bir sona doğru aparıldığını fərq edə bilməz. Bunun ən əhəmiyyətli səbəblərindən biri insanların şeytanı doğru tanımamalarıdır.

Şeytan haqqında ən geniş yayılmış olan səhvlərdən biri şeytanın Allahdan müstəqil güc olduğunun zənn edilməsi və (Allahı tənzih edirik) şeytanın Allaha qarşı mübarizə içində olduğunun düşünülməsidir. Satanistlərin də ən böyük səhvlərindən biri budur. Satanistlər də şeytanı ayrı bir güc olaraq düşünür və şeytanın üsyanını və itaətsizliyini özlərinə nümunə götürürlər. Özləri də nizama və yaxşılığa qarşı üsyan etdikləri təqdirdə, şeytana mübarizəsində dəstək olacaqlarına inanırlar. Halbuki gerçəkdə şeytan da Allahın yaratdığı, Ona boyun əymiş varlıqdır. Allaha olan üsyanı, yenə Allahın təyin etmiş olduğu qədər daxilindədir. Üstəlik şeytan, Allahın varlığına inanan və Allahdan qorxan varlıqdır.

Özünə qiyamətə qədər müddət verilmiş olduğunun və axirət günündə etdiklərinin cəzasını çəkəcəyinin fərqindədir. Ayədə şeytanın bu xüsusiyyəti belə bildirilmişdir:

**Münafiqlər şeytana bənzəyirlər. Şeytan insana: "Kafir ol!" – deyir. İnsan kafir olan kimi: "Mən səndən uzağam. Mən aləmlərin Rəbbi olan Allahdan qorxuram!" – deyir. (Həşr surəsi, 16)**

Həmçinin, şeytan bu itaətsizliyi ilə hər hansı bir mənfəət təmin etməmiş, tam tərsinə əbədi itkiyə məruz qalmışdır. Cənnətdən qovulub cəhənnəm əzabına məhkum edilən şeytanın əsl məqsədi, mümkün qədər çox insanı özü ilə birlikdə bu əzaba sürükləməkdir. Apardığı mübarizənin əsası budur. Digər ifadəylə onun mübarizəsi insanlara, insanlığın yaxşılığına qarşıdır. Və ayələrdə də görüldüyü kimi, şeytan insanı davamlı inkar etməyə, qəflətə salmağa, Allahdan uzaq yaşamağa dəvət edərkən, özü həqiqətin çox yaxşı fərqindədir. Necə ki, hesab günü gəldiyində özünə uyanları üzüstə buraxacaq və vəd etdiyi şeylərin böyük yalandan ibarət olduğunu onlara izah edəcək. Bu vəziyyətdə şeytanın qurduğu planların, insanları azdırmaq üçün hazırladığı tələlərin cadusuna qapılanların sonu böyük hüsran olacaq. Ayədə belə buyurulur:

**İş bitdikdə şeytan deyəcək: "Həqiqətən də, Allah sizə gerçək vəd vermişdi. Mən də sizə vəd vermişdim, lakin vədimə xilaf çıxdım. Mənim sizin üstünüzdə heç bir hökmranlığım yox idi. Mən sizi azğınlığa dəvət etdim, siz də dəvətimi qəbul etdiniz. Buna görə də məni yox, özünüzü qınayın. Nə mən sizin köməyinizə çata bilərəm, nə də siz mənim köməyimə çata bilərsiniz. Heç şübhəsiz ki, mən əvvəllər də sizin məni Allaha şərik qoşmağınızı rədd etmişdim". Həqiqətən, zalımlar üçün ağrılı-acılı bir əzab hazırlanmışdır. (İbrahim surəsi, 22)**

Satanistlər də, şeytanın təlqinlərinə aldanaraq azğınlığı və pisliyi yol olaraq mənimsəyən digər insanlar kimi nə qədər böyük səhv etdiklərini şübhəsiz bir gün anlayacaqlar. Əhəmiyyətli olan bu həqiqəti dünyadaykən, gerçəklər onlara izah edildiyində qavraya bilmələridir. Çünki özlərinə öndər seçdikləri şeytan, onlara heç bir zaman sahiblənməyəcək, hər zaman yarı yolda buraxacaq. Şübhəsiz onun yalanlarına inanmaq, bəzəkli təlqinlərini gerçək sanmaq böyük şüursuzluq və ağılsızlıqdan başqa bir şey deyil.

## Satanistlər şeytana aldanırlar

Şeytan insanın ən böyük düşmənidir, çünki yer üzündə olmasının məqsədi insanları Allaha imandan uzaqlaşdırmaq və Quran ayələrini yerinə yetirməkdən uzaqlaşdırmaqdır. Allah şeytanın insanları hər an müşahidə etdiyini, (Əraf surəsi, 27), hiyləgərcəsinə sinələrə və qəlblərə vəsvəsə verdiyini (Nas surəsi, 4-5), insanları qorxutmağa çalışdığını (Ali İmran surəsi, 175) və onların doğru yolu üzərinə oturduğunu (Əraf surəsi, 16) bildirir. Ancaq şeytanın Quran ayələrində təsvir edilən xüsusiyyətlərini bilməyən insan, onun insanlar üzərində meydana gətirdiyi təsirinin də fərqində olmaz. Bu səbəblə də şeytandan gələn vəsvəsələrə qulaq verər, təhriklərinə uyar və söylədiklərinə inanar. İnsanların böyük əksəriyyətinin şeytanın təsirinin fərqinə vara bilməmələrinin ən böyük səbəblərindən biri, şeytanın insanlara müxtəlif maskalar altında yaxınlaşmasıdır.

Şeytan insanlara öyüd-nəsihət verən, onları doğrulara istiqamətləndirən görünüşə bürünər. İnsanların zəifliklərini, əskikliklərini və nələrdən təsirləndiklərini çox yaxşı bildiyi üçün, onları müvəqqəti olaraq dost etmək məqsədi ilə onlardan istifadə edər. Əsl niyyətini, insanı necə bir müsibətə sürükləmək istədiyini hiss etdirməz. Təsiri altına almağa çalışdığı insanı, ona kömək etmək istədiyinə, onun yaxşılığını düşündüyünə, onu içində olduğu vəziyyətdən qurtarmağa və daha yaxşı mövqelərə çatdırmağa çalışdığına inandırdıqdan sonra bu adamı idarəsi altına alar. Bütün təlqinləri insanı öz tərəfinə çəkmək məqsədlidir. Ən əhəmiyyətli iddiası isə, tək qurtuluşun özünə tabe olunması ilə mümkün olacağıdır.

Hz. Adəmin, cənnətdən çıxarılmasına səbəb olan hadisənin səbəbi də bu hiyləgər tələdir. Şeytan hz. Adəmə və yoldaşına dost kimi yaxınlaşmış və onlara öyüd verdiyinə dair and içmişdir. Bu mövzunu xəbər verən ayələrdə belə buyurulur.

**Şeytan onların bir-birindən gizli qalan ayıb yerlərini özlərinə göstərmək üçün onlara pıçıldayıb dedi: “Rəbbiniz sizə bu ağacı yalnız ona görə qadağan etmişdir ki, siz mələk və ya Cənnətdə əbədi qalanlardan olmayasınız”. Üstəlik onlara: “Şübhəsiz ki, mən sizin nəsihətçilərinizdənəm” - deyə and içdi. (Əraf surəsi, 20-21)**

Şeytan hz. Adəmi və yoldaşını aldadaraq cənnətdən çıxarılmalarını təmin etmişdir. Bu vəziyyət insanın ömrü boyu qarşı-qarşıya olduğu gizli düşməninin nə qədər hiyləgər bir yalançı olduğunu ən əsas dəlillərindən biridir.

Hz. Adəmə bütün şeytanların ən böyüyü olan İblis tərəfindən verilən "mən sizin xeyirxah məsləhətçilərinizdənəm" təlqini, digər insanlara da insi şeytanlar tərəfindən həyata keçirilir. (İnsi şeytan, insan görünüşündə olan şeytanlara və ya birbaşa şeytanın

ilhamı ilə hərəkət edən insanlara verilən addır. Allah Quranda insi və cini şeytanların varlığından bəhs etmiş və bunların İblisin tərəfdarları olduqlarını bildirmişdir.) Öz qövmünü Allahın yolundan uzaqlaşdırarkən onlara, **"...Mən sizə ancaq öz düşündüyümü bildirirəm, mən sizə ancaq doğru yolu göstərirəm” (Mümin surəsi, 29)** deyən Firon bunun nümunəsidir.

Məhz satanistlərin etdiyi təlqinlər də buna bənzəyir. İnsanları, satanizmin qaranlığına çəkmək istəyən bu insi şeytanlar, bənzər yalanlarla onları aldadır. Satanizmi, insanın hər istədiyini dilədiyi kimi istifadə edə biləcəyi, insana güc verən, bütün dünyəvi çətinliklərdən uzaqlaşdıran, bütün məsuliyyətləri qaldıran, nəfsani istəklərin rahatca yaşana biləcəyi dünya olaraq göstərən satanistlər, eynilə öndərləri şeytan kimi insanları azdırmağı məqsəd bilirlər. Bu təlqinlərlə insanların yaxşılığını istəyirmiş kimi görünürlər. Halbuki bu bəzəkli təlqinlərin hamısı böyük bir yalandan ibarətdir. İlk əvvəllərdə bu yalanın təsirində qalan biri, bir müddət sonra satanist həyatın özünə azadlıq deyil, asılılıq gətirdiyini, sərhədsiz pisliyi yaşamanın isə özünü canavara çevirməyə başladığını görəcək. Xilas olmaq üçün girdiyi bu yol özünü çox böyük bir bataqlığın içinə sürüyəcək.

Şeytan “öyüd vermə” taktikasını, insanın yaxın ətrafından istifadə edərək də edə bilər. Bir yoldaşın, ya da cəmiyyətdə qibtə etdiyi bir adamın təlqini insanın üzərində çox fərqli təsir buraxa bilər. Məsələn, Quranda, iman etdikdən sonra şeytan tərəfindən aldadılan və yoldaşlarının təlqinləriylə azan kəslərdən bəhs edilir. Bu “ yoldaş”ların sözləri, şeytanın taktikasını çox dəqiq gözlər önünə sərir: **“Doğru yola, bizə gəl ...” .** Şeytanın bu taktikasının bildirildiyi ayələr belədir:

**De: “Biz Allahı qoyub bizə nə bir xeyir, nə də bir zərər verə bilməyən şeylərəmi ibadət edəcəyik? Allah bizi doğru yola yönəltdikdən sonra, şeytanların yer üzündə azdırdığı, mömin dostlarının isə: “Bizə tərəf gəl!” – deyib doğru yola çağırdıqları çaşbaş qalan kimsə kimi geriyəmi döndəriləcəyik?” De: “Ancaq Allahın haqq yolu doğru yoldur! Bizə əmr edilmişdir ki, aləmlərin Rəbbinə təslim olaq. (Ənam surəsi, 71)**

İnsan bu düşmənə qarşı son dərəcə diqqətli olmaq məcburiyyətindədir. Ancaq Allaha tam olaraq təslim olmuş və Onun zikrinə möhkəm sarılmış kəs bunu bacaracaq şüura sahib olar. Şeytanın təlqinlərinin qaynağını dərhal analiz edər və zehnindən çıxarıb atar. Əks halda insan bunları öz düşüncəsi zənn edər və iradəsini ona təslim edər. Şeytanın təlqinlərinə tabe olub, onunla birlikdə və onun əmrlərinə görə hərəkət edən insanların vəziyyətini Allah, **"...Kimin yoldaşı şeytandırsa, necə də pis yoldaşdır o!” (Nisa surəsi, 38)** ayəsiylə bildirmişdir. Halbuki insanın etməli olduğu Allahın bildirdiyi **"... Həqiqətən, şeytan sizin düşməninizdir, siz də onu düşmən sayın. O, öz tərəfdarlarını Od**

**sakini olmağa çağırır." (Fatir surəsi, 6)** ayəsinə uymaqdır. Şeytanın çağırışına cavab verənlərin sonu isə ayələrdə bu şəkildə bildirilir:

**İnsanlardan eləsi də var ki, heç nə bilmədiyi halda Allah haqqında mübahisə edir və hər bir asi şeytana itaət edir. Onun haqqında belə yazılmışdır: kim şeytanla dostluq etsə, şeytan onu doğru yoldan çıxardıb alovlu Odun əzabına sürükləyər. (Həcc surəsi, 3-4)**

Buraya qədər şeytanın insanları müxtəlif üsullarla aldatdığını, onları Rəhmanın vəhyindən uzaqlaşdırdığını izah etdik. Ancaq şeytanın da Allahın yaratdığı bir varlıq olduğunu və şeytanın qurduğu bütün tələləri yaradanın da Allah olduğunu unutmamaq lazımdır. Allah insanlardan saleh olanları ortaya çıxarmaq, onları dünya həyatında sınamaq və öyrətmək kimi bir çox hikmət üzərinə şeytanı, şeytanın hər cür hiyləsini və satanizmi qədər içində yaratmışdır. Allah şeytanı vəzifələndirmiş, ona dünya həyatındakı imtahanın gərəyi olaraq insanları doğru yoldan çıxarmaq üçün cəhd göstərməsini əmr etmişdir. İsra surəsində bu əmrlər bu şəkildə bildirilir:

**Onlardan gücün çatdığı kimsələri səsinlə günaha təhrik et, atlı və piyadanı onların üstünə yerit, mallarına və övladlarına şərik ol, onlara vədlər ver. Şübhəsiz ki, şeytan onlara ancaq yalan vədlər verər. (İsra surəsi, 64)**

Bir sonrakı ayədə isə Allah şeytana bu şəkildə bildirir:

**Əslində, Mənim ixlaslı qullarım üzərində sənin hökmranlığın olmayacaqdır. Qoruyan olaraq Rəbbin yetər" (İsra surəsi, 65)**

Diqqət edilsə, şeytan iman edən qullar üzərində heç bir təsir meydana gətirə bilməz. Şeytanın kimlər üzərində təsirli ola biləcəyi isə Zuxruf surəsində belə bildirilir:

**Kim Mərhəmətli Allahın zikrindən üz döndərsə, Biz şeytanı ona calayarıq və o da ona yoldaş olar. Şübhəsiz ki, şeytanlar onları haqq yoldan sapdıracaq, onlar isə özlərinin haqq yolda olduqlarını güman edəcəklər. (Zuxruf surəsi, 36-37)**

## Niyə satanist olurlar?

Satanizmin son illərdə bu qədər yayılması, satanist cinayətlərdən və intiharlardan mətbuatda bu qədər bəhs edilməsi “niyə satanist olurlar?” sualını da özü ilə gətirir. Bu mövzuda yazılan məqalələrdə həmişə eyni səbəblər göstərilir, iqtisadi böhran, ya da ailə daxili problemlər kimi səbəblər qarşıya qoyularaq, insanların satanizm kimi azğın bir yolu seçmələri məqbul rəftar kimi göstərilməyə çalışılır. Ancaq bunların heç biri həqiqəti əks etdirmir.

İnsanların satanist olmalarının ən əhəmiyyətli səbəblərindən biri kitabın ilk hissələrində üzərində dayandığımız materialist, ateist və darvinist düşüncə quruluşudur. İnsanları gözələ və yaxşıya yönəldən İlahi dinlərə qarşı çox böyük düşmənçilik bəsləyən, bu düşmənçiliklərini müxtəlif şəkillərdə ifadə etmək istəyən insanlar, satanizm ilə bu kinlərini ortaya çıxarırlar. Şeytan onları müxtəlif təqinlərlə təsir altına almış, satanizmi mistik, həyəcanverici macəra kimi göstərmişdir. Allahın bir ayəsində **"... Şeytan onların əməllərini özlərinə gözəl göstərmiş və onları haqq yoldan çıxartdığına görə haqqın yolunu tapa bilmirlər." (Nəml surəsi, 24)** şəklində bildirmişdir. Şeytan “gözəl və bəzəkli göstərmə” üsuluyla insanları qaranlıq bir dünyaya çəkir, onları cəhənnəmə qədər sürükləyir:

**Sənə nazil edilənə və səndən əvvəl nazil edilənlərə iman gətirdiklərini iddia edənləri görmədinmi? Onlar mühakimə olunmaları üçün tağuta müraciət etmək istəyirlər. Halbuki onlara tağuta inanmamaq əmr olunmuşdur. Şeytan isə onları dərin bir azğınlığa salmaq istəyir (Nisa surəsi, 60)**

Bu kəslər satanizmi şüurlu olaraq seçən, insanları bu yola salmaq üçün səy göstərən kəslərdir. ayələrdə ancaq Allahın ayələrini inkar edən kəslərin şeytanı dost seçdikləri bildirilir:

**Kim Mərhəmətli Allahın zikrindən üz döndərsə, Biz şeytanı ona calayarıq və o da ona yoldaş olar. Şübhəsiz ki, şeytanlar onları haqq yoldan sapdıracaq, onlar isə özlərinin haqq yolda olduqlarını güman edəcəklər. Nəhayət, o, hüzurumuza gəldikdə yoldaşına deyər: “Kaş ki, mənimlə sənin aranda məşriqlə məğrib arasındakı uzaqlıq qədər məsafə olaydı. Sən nə pis yoldaş imişsən!”Onlara deyilər: “Siz haqsızlıq etdiyinizə görə bu gün əzaba şərik olmağınız sizə heç bir fayda verməz!” (Zuxruf surəsi, 36-39)**

Satanizmi seçən ikinci kütlə isə qəzetlərə və müzakirə proqramlarına tez-tez mövzu olan cahil, problemli, yaxşı təhsil almamış kəslərdir. Problemli şəxsiyyətə sahib bu kəslər özlərinə cəmiyyət içində bir yer edə bilmək, yoldaş sahibi olmaq, komplekslərini

məmnun etmək, müvəffəqiyyətsizliklərini və problemlərini unutmaq, diqqət çəkmək kimi səbəblərlə satanist ola bilərlər. “Avara hərəkəti” halına gələn bu gənclər, şeytanın təlqinlərinə aldanır, bu yolla etibar qazanacaqları yanılmasına düşərlər.

Ancaq hər iki qrupun əsas problemi Allahın dinini və Quran əxlaqını tanımamalarıdır. Bu insanlar kainatın yaradılış məqsədini və özlərinin dünyaya niyə gəldiyini bilməyən, özbaşına həyat sürdükləri yanılmasına sahib olan kəslərdir. Halbuki Allah dünyanı bütün insanlar üçün sınaq olaraq yaratmışdır. İnsan yaşadığı müddətdə Allahın dilədiyi şəkildə həyat sürməklə məsuldur. Yəni insanın yaradılış məqsədi vardır. Allah tarix boyunca haqq dinlər vasitəsilə insanların yaradılış məqsədlərini, ibadət yollarını, Özünü razı edəcək olan üstün əxlaq və rəftarları bildirmişdir. Qüsursuz yaradılışla var edilən insanın yaradılış məqsədi Allahın inanan qullarına rəhbər olaraq endirdiyi Quranda **"Mən, cinləri və insanları yalnız Mənə ibadət etsinlər deyə yaratdım." (Zəriyət surəsi, 56)** ayəsi ilə bildirilmişdir.

Məhz bu nöqtədə insanların dünyada keçirdikləri müddətin, sonsuz axirət həyatına görə çox qısa olduğunu bilərək davranmaları çox əhəmiyyətlidir. Çünki dünyada yaşayan bütün insanlar əvvəl-axır mütləq öləcək və Allahın qarşısında hesab verəcəklər. Allah **“Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır. lacağını sınamaq üçün ölümü və həyatı yaradan Odur ...” (Mülk surəsi, 2)** ayəsində də bildirdiyi kimi, insanlar həyatları boyunca müxtəlif hadisələrlə sınanırlar. Hər insanın dünya həyatındakı rəftarı axirətdəki sonsuz həyatını harada keçirəcəyini müəyyənləşdirir. Bu səbəblə azğın yolları seçən, şeytanın əmrləri ilə hərəkət edən, gözəl əxlaqı çirkin görüb, hər cür pisliyi yaşamağı azadlıq sanma səhvinə düşən insanlar çox böyük yanılmaya qapılmışlar. İnsanların bu həqiqətləri gözardı edib, laqeyd şəkildə, sanki bu dünyada olma məqsədləri yoxmuş kimi hərəkət etmələri, şeytanın təlqinlərinə özlərini alüdə edib boş və zərərli şeylərlə vaxt keçirmələri, ömürlərini ruhi xəstəliyə qapılaraq keçirmələri onları axirət əzabına doğru sürükləyir. Şeytanı dost seçən bu kəslər üçün ayələrdə bu şəkildə bildirilir:

**Allah Öz bəndələrinin bir qismini doğru yola yönəltdi, digərlərinə isə haqq yoldan azmaq layiq görüldü. Çünki onlar Allahı qoyub şeytanları özlərinə dost tutdular və elə güman edirlər ki, doğru yoldadırlar. (Əraf surəsi, 30)**

**Şeytan onları üstələmiş və Allahı zikr etməyi onlara unutdurmuşdur. Onlar şeytanın firqəsindəndirlər. Şübhə yoxdur ki, şeytanın firqəsindəkilər ziyana uğrayanlardır. (Mücadilə surəsi, 19)**

## Allah bağışlayan və sonsuz mərhəmət sahibidir

Kitabın bura qədər olan hissəsində şeytanın insanları necə doğru yoldan uzaqlaşdırdığından və satanizm adı verilən bu azğın təlim ilə böyük tərəfdaş kütləsi əldə etdiyindən bəhs etdik. Ancaq burada cahillik nəticəsində, ya da şeytanın yalanına aldanaraq satanizm cərəyanına qapılan insanlara Allahın **"tövbələri qəbul edən, çox böyük mərhəmət sahibi, qullarını bağışlayan"** sifətlərini xatırlatmaq lazımdır. İnsan nə qədər böyük səhv işləmiş, nə qədər çox pislik etmiş olursa olsun, əgər etdiklərindən peşmanlıq duyub səmimiyyətlə tövbə edər və əxlaqını islah edərsə, Allah belə insanın tövbəsini qəbul edəcəyini vəd etmişdir. Bu mövzuyla əlaqədar bəzi ayələr bu şəkildədir:

**Yalnız tövbə edənlər, əməllərini islah edənlər və haqqı bəyan edənlər istisnadır. Mən onların tövbəsini qəbul edərəm. Mən tövbələri qəbul edənəm, Rəhmliyəm! (Bəqərə surəsi, 160)**

**Bundan sonra tövbə edib öz əməllərini islah edənlər isə istisnadır. Şübhəsiz ki, Allah Bağışlayandır, Rəhmlidir. (Ali İmran surəsi, 89)**

**Allah sizin tövbələrinizi qəbul etmək istədiyi halda, ehtiraslara qapılanlar sizi çox kənara meyl etməyə (haqdan uzaqlaşmağa) yönəldərlər. (Nisa surəsi, 27)**

**Hər kim haqsızlıq etdikdən sonra tövbə edib əməllərini islah etsə, şübhəsiz ki, Allah onun tövbəsini qəbul edər. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir. (Maidə surəsi, 39)**

Yaşadıqları bu azğınlıqlarına görə peşman olub qəti olaraq tövbə edən, özünü Allaha təslim edən, Quran əxlaqını yaşayan insanların qarşılaşacaqları gözəl son isə Quranda bu şəkildə bildirilir:

**Həm də Rəbbinizdən bağışlanma diləyəsiniz, sonra da tövbə edəsiniz ki, O sizə müəyyən olunmuş vaxtadək gözəl gün-güzəran nəsib etsin və hər fəzilət sahibinə Öz lütfündən versin. Əgər Ondan üz çevirsəniz, bilin ki, mən sizə üz verəcək əzəmətli günün əzabından qorxuram. (Hud surəsi, 3)**

**Ey iman gətirənlər! Allaha səmimi olaraq tövbə edin. Ola bilsin ki, Rəbbiniz günahlarınızdan keçsin və sizi, Allah o Peyğəmbəri və onunla birlikdə iman gətirənləri utandırmayacağı gündə, ağacları altından çaylar axan Cənnət bağlarına daxil etsin. Onların nuru önlərindən və sağ tərəflərindən ətrafa yayılacaqdır. Onlar deyəcəklər: "Ey Rəbbimiz! Nurumuzu bizim üçün tamamla və bizi bağışla. Həqiqətən, Sən hər şeyə qadirsən!" (Təhrim surəsi, 8)**

## Şeytanın təsirindən necə çıxmaq olar?

Şeytanın insan üzərində çox böyük təsiri ola bilər. Şeytan o insanın həyatının hər anına hakim olmuş ola bilər. Ancaq bu, içindən çıxılmayan, həlli olmayan vəziyyət deyil. Əhəmiyyətli olan insanın bu vəziyyətdən necə çıxacağını bilməsidir. Şeytanın təsirləri nə qədər geniş əhatəli və çox istiqamətli olursa olsun, Quranda ifadə edildiyi üzrə, şeytanın bu təsirini uzaqlaşdırmaq son dərəcə asandır. Allah Quranda insanlara şeytanın təsirindən çıxmaları üçün müxtəlif yollar göstərmişdir:

**Əgər şeytandan sənə bir vəsvəsə gəlsə, Allaha sığın. Şübhəsiz ki, O, Eşidəndir, Biləndir. Allahdan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman Allahı xatırlayar və dərhal gerçəyi görərlər. (Əraf surəsi, 200-201)**

Allahdan qorxmaq, Allahın ayələri üzərində düşünmək və Ona qarşı səmimi olmaq, şeytanın təsirinə qarşı çox əhəmiyyətli açardır. Çünki Allah Quranda Ondan qorxanlara **"doğrunu səhvdən ayıran anlayış verəcəyini" (Ənfal surəsi, 29)** bildirir. İnsanların öz üzərlərindəki mənfi təsiri təsbit edə bilmələri üçün yalnız vicdanlarının səsini dinləmələrinin yetərli olacağını da unutmamaq lazımdır. Vicdanının səsini dinləyən, səmimi insan şeytanın təsirindən rahatlıqla azad ola bilər. Çünki vicdan əsla səhv etməyən, azmayan rəhbərdir və Allahın insanlara verdiyi çox böyük bir nemətdir.

Allah, səmimi iman edən və Ona təvəkkül edən möminlərə, şeytanın hiylələrinin mütləq pozulacağının və səmimi qullarının üzərində bu tələlərin əsla təsir etməyəcəyinin müjdəsini belə verir.

**Yalnız Sənin seçilmiş, ixlaslı qullarından başqa". Allah dedi: "Bu, Mənə tərəf gətirib çıxaran düz yoldur. Şübhəsiz ki, qullarım üzərində sənin heç bir hökmün yoxdur. Yalnız sənə uyan azğınlardan başqa". (Hicr surəsi, 40-42)**

Ayələrdə də bildirildiyi kimi, şeytanın təsirinin olmaması üçün yalnız səmimi olmaq, Qurana görə düşünmək və şeytandan vəsvəsə gəldiyində dərhal Allaha sığınmaq yetərli olacaq. Ancaq insanın əsla unutmamalı olduğu ən əhəmiyyətli xüsus isə, bunların heç birinin çətin olmamasıdır. Şübhəsiz şeytan Allaha inanan xalis bəndələrinə heç zaman zərər verə bilməyəcək. Çünki Allah iman edənlərin vəlisi və dəstəkçisidir. Rəhməti ilə möminləri qoruyacaq və onlara razı olacağı doğru yolu hər zaman göstərəcək.

Bununla yanaşı insanın, əhəmiyyətli mövzuları ağlında tutması və bu mövzuda diqqətli olması şeytanın təsirinin dağılması baxımından çox əhəmiyyətli amildir. Məsələn, insan bir gün mütləq öləcəyini, hər şeyin qədərdə ən gözəliylə yaradıldığını, dünya həyatının sadəcə müvəqqəti sınaq məkanı olduğunu, Allahın mütləq varlığını daima düşünməlidir. Bu həqiqətləri bilməsi və bunların şüurunda olması insana çox böyük sevinc və hüzur gətirər. İmanın gətirdiyi nemətlər heç bir şeylə müqayisə edilə bilməz.

Şeytanın insanları dünya həyatında xoşbəxt olmaları üçün yönəltdiyi maddi dəyərlərlə xoşbəxt olmağın mümkün olmayacağının ən böyük göstəricisi, hər cür imkana sahib olduqları halda heç cür həqiqi rahatlığı, xoşbəxtliyi və hüzuru tapa bilməyən insanlardır. İmanın gətirdiyi sevinc, gümrahlıq və ağıl qarşısında şeytanın heç bir taktikası təsirli ola bilməz.

# Şeytana tapınanların tarixi

Buraya qədər üzərində dayandığımız məlumatlar, satanistləri təsiri altına alan şeytanın əsl üzünü bizə göstərmiş oldu. Bu mərhələdə həmçinin satanizmin tarixi keçmişi üzərində qısaca dayanmaq yerində olacaq.

Satanistlər Orta əsr və sonra Kabalistlər, Gül-xaçlar kimi sirli təşkilatlar və cadugərlik təriqətləri ilə birlikdə anıldılar. Modern satanizm olaraq adlandırılan və dövrümüzdə təsirli olan satanizm isə 1960-cı illərdə Amerikanın Kaliforniya əyalətində ortaya çıxdı. Anton Szandor Lavey adlı adam 1966-cı ildə "Church of Satan" (Şeytan Kilsəsi)-ni qurduğunu açıqladı. Ancaq Laveydən çox daha əvvəl, 1900-cü illərin əvvəlində yaşayan Alister Krouli dövrümüzdəki satanizmin ilk təməllərini atmışdı. "Böyük Canavar" (The Beast 666) ləqəbi ilə xatırlanan Krouli, etdiyi cadular və heyvanların qətl edildiyi, narkotikin çox istifadə edildiyi qanlı ayinləriylə məşhur idi. Kroulinin fəlsəfəsinin təməl nöqtəsini, "nə istəyirsənsə onu et" düsturu meydana gətirirdi. Bu fəlsəfə, Krouliyə görə şeytan tərəfindən ona yazdırılmış olan, "*The Book of Law*" (Qanun Kitabı) adlı kitabda təfərrüatları ilə izah edilirdi. Bu azğın inanca görə insan, içindən keçən hər nə isə, bunun səbəb olacağı fəlakətləri və pislikləri düşünmədən, onu dərhal etməli idi. Məsələn, canı azğınlıq istəyirsə hər cürünü etməli, birinə hirsləndisə hirsini dərhal üzə vurmalı, hətta içindən qarşısındakını öldürmək keçirsə bunu dərhal yerinə yetirməli idi.

Cəmiyyətdə bərabərlik və qayda-qanun buraxmayacağı açıq şəkildə bəlli olan bu anormal fikirləri Krouli bu sözlər ilə müdafiə edirdi:

Mən müqəddəs şeyləri söymək, cinayəti, təcavüzü, inqilabı istəyirəm. Yaxşı, ya da pis hər hansı bir şeyi, yetər ki, güclü olsun. [3]

Şübhəsiz, güclü olmanın pis olmaqla və pislikləri müdafiə etməklə təmin ediləcəyini düşünən Krouli böyük səhvin içində idi. Çünki pislik hər şeydən əvvəl insanın özünə zərər verən xüsusiyyətdir. Bununla yanaşı, pisliyə əsaslanan güc əldə edilsə belə bu güc hər zaman qısa ömürə məhkumdur. Zülm, haqsızlıq, vicdansızlıq üzərinə qurulan hər sistem mütləq yıxılmış, məğlubiyyətə uğramışdır. Alister Kroulinin "*insanın canı nə istəyirsə onu etməlidir*" fəlsəfəsiylə izah etdiyi isə, insanın içindən keçən hər cür pis düşüncə, duyğu və qərarlara heç bir məhdudiyyət olmadan yerinə yetirməsidir. Başqa sözlə, nəfsi insana nə əmr edirsə, insanın ona uyması, nəfsinə hakim olmağı buraxması mənasını daşıyar. Bu da son dərəcə təhlükəli vəziyyətdir. Allah Quranda insanın nəfsinin həmişə pisliyi əmr etdiyini (Yusif surəsi, 53), ancaq eyni zamanda insana bu pislikdən necə qorunub çəkinəcəyinin də ilham edilmiş olduğunu bildirir. (Şəms surəsi, 8) Həmçinin Quranda, **"... Kim şeytanın izi ilə getsə, (bilsin ki) həqiqətən o (şeytan) çirkin və yaramaz işlər görməyi əmr edir ..."** (Nur surəsi, 21) ayəsiylə buyurulduğu kimi, şeytanın da əsl məqsədi insanları pisliyə təhrik etməkdir. Şeytanın istifadə etdiyi ən əhəmiyyətli silahlarından biri insanın öz

nəfsidir. Nəfs həmişə pisliyi əmr etdiyi üçün, nəfsinə və şeytana uyan adam böyük bir müsibət içindədir. İnsanın qurtuluşu və xoşbəxtliyi ancaq nəfsinin əmr etdiklərindən çəkinməsi və qeyd-şərtsiz vicdanına tabe olması ilə mümkündür. Pisliyə uyaraq qurtuluşa çatacaqlarını sananların sonu isə qorxunc məyusluqdur:

**O gün insan törətdiklərini xatırlayacaqdır. Cəhənnəm isə hər görmə qabiliyyətliyə göstəriləcəkdir. Kim həddi aşmışsa, dünya həyatını axirətdən üstün bilmişsə, həqiqətən, Cəhənnəm onun sığınacağı olacaqdır (Naziat surəsi, 35-39)**

Həqiqətdə satanizm insanın öz mənliyini demək olar ki, ilahlaşdırdığı, öz istək və arzularını həyatın tək məqsədi halına gətirdiyi fəlsəfədir. Bu mənada satanizm humanist fəlsəfəyə də yaxınlıq göstərir. Bu nöqtədə, humanizmin çox insanın düşündüyü kimi, "sevgi, sülh, qardaşlıq" kimi mesajlar ehtiva edən fəlsəfə deyil, "insanlıq" anlayışını insanlar üçün tək məqsəd və mərkəz nöqtəsi halına gətirən dindənkənar cərəyan olduğunu xatırlatmaq lazımdır. Humanizm, öz müdafiəçiləri tərəfindən də açıq şəkildə ifadə edildiyi kimi, ateist cərəyandır. Humanizmə görə "kainat və insan yaradılmamışdır", "insan öz başına var olmuşdur" və "kimsəyə qarşı məsul deyil". "Əsl olan insanın özüdür və insandan daha əhəmiyyətli heç bir varlıq yoxdur". Üstəlik, humanizmə əsl sahib olan olan "faydalılıq" düşüncəsidir. Buna görə insan dünyaya bir dəfə gəlmişdir və burada nə qədər fayda təmin edə bilərsə, o qədər qazancda olacaq. O zaman insanın rəftar və münasibətlərini təyin edən ana element də öz istək və ehtirasları olmalıdır. Ancaq bütün bu düşüncələr insanlığı böyük fəlakətə sürükləyəcək fikirlərdir. Birincisi, kainat humanistlərin iddia etdiyi kimi, kor təsadüflərin əsəri deyil. Kainatı üstün güc və qüdrət sahibi olan Allah yaratmışdır. Və insan da, **"Mən, cinləri və insanları yalnız Mənə ibadət etsinlər deyə yaratdım."** (Zəriyət surəsi, 56) ayəsiylə buyurulduğu kimi özünü yoxdan var edən Rəbbimizə qarşı qul olmaqla, Onun əmr etdiyi əxlaqı göstərməklə məsuldur. Bu gerçək unudulmamalıdır ki, insanlara həqiqi hüzuru və xoşbəxtliyi gətirəcək tək əxlaq Rəbbimizin Quranda əmr etdiyi əxlaqdır. Din əxlaqından uzaq yaşayıb, humanizm kimi ideologiyaların təsiri altında qalanların müdafiə etdiyi fikirlər nəticəsində ortaya yalnız öz maraqlarını düşünən, mərhəmətsiz, vəfasız, sevgisiz, mərhəmətsiz şəxslər çıxacaq.

Göründüyü kimi, humanizm insanlıq üçün son dərəcə təhlükəli fikirlərə malikdir. Humanizmin fikri dayaqlarından biri olaraq istifadə edilən satanizm isə, daha çox azğın və təhlükəli baxış aspekti meydana gətirmiş, şiddəti, qəzəbi, qanı və vəhşiliyi təməl dəyəri halına gətirmişdir.

## Şeytan kilsəsi

Alister Kroulidən sonra Anton Szandor Lavey, dövrümüzdəki satanizmin banisi olaraq ortaya çıxdı. Cadu və əsrarəngiz rituallara duyduğu dərin maraq ilə tanınan Lavey əvvəllər, xristianlığa qarşı çıxan "Magic Circle" (Cadu Dairəsi) adlı qrup meydana gətirdi. Daha sonra içində məşhur "doqquz şeytani qanun"un da olduğu "*Satanic Bible"* (Şeytan İncili)" ni yazdı və yaratdığı qrupu "Şeytan Kilsəsi" olaraq adlandırdı. Bu kilsənin fikirləri, yenə Anton Szandor Lavey tərəfindən yazılan "*The Satanic Rituals", "The Satanic Witch", "The Devil's Notebook" və "Satan Speaks"* (Şeytan ritualları, Şeytani Cadugər, İblisin Dəftəri və Şeytan Danışır) adlı kitablara əsaslanır. Yalnız Şimali Amerikada təxminən 10 min izləyicinin olduğu təxmin edilən Şeytan Kilsəsi, son dərəcə azğın fikirlərə malikdir. "*Amerika Dinlər Ensiklopediyası"* nda Laveyin azğın dini belə izah edilir:

*Laveyin satanizm ssenarisindəki təməl mövzular, müəyyən bir kilsəyə aid olmama və insanın fiziki, ya da zehni quruluşundan zövq almaqdır. Şeytan,* ***insanın bir növ heyvan olduğu fikrini, fiziki və zehni zövq almanın əsasını təşkil edən günahı təmsil edər.*** *Laveyə görə şeytan bu dəyərlərin qaynağını təmsil edir. Rituallar, ənənəvi cadu ayinlərində olduğu kimi psixokinetik güc üzərində diqqəti cəmləyən fəaliyyətlər düşünmək olar. Satanist fəlsəfə Alister Kroulenin "The Book of the Law" (Qanun Kitabı) kitabındakı təlimlərinə olduqca yaxındır. Hər insan öz qaydalarına görə yaşayır kimi qəbul edilir.* [4]

Şübhəsiz satanizmin təməl ünsürlərindən biri din əxlaqına və bu əxlaqa dair hər şeyə qarşı olmasıdır. Üstəlik, bu ziddiyyət sadəcə fikri sahədə qalmaz. Satanistlər həm ateistdir, həm də hər cür dini dəyərlərlə mübarizə aparırlar. Laveyin satanizmi də xristianlıqla mübarizəni əsl hədəf olaraq görür. Lavey din düşmənliyini bu şəkildə ifadə edir:

*Satanizm sadəcə ateist formalaşma deyil, eyni zamanda, anti-teizm (Allaha qarşı) olan qruplaşmadır. İnsanoğlu sürətlə bu kainatı kirlədir; varlıq səbəbi olaraq dini görmək artıq qəbul edilən vəziyyət deyil ... Həyatda qala bilmək üçün 2000 ildir davam edən bu passivliyi və ölüm ehtirasını yıxmalıyıq. Dərhal tətbiq oluna biləcək realist həll yolları qarşımızda var. Xristianlıq hər zaman olduğu kimi, tərəqqinin önündəki ən böyük maneə olaraq dayanır.* [5]

Diqqət yetirilsə, Laveyin bu sözləri 19-cu əsrdə inkişaf edən materializm qaynaqlı dünya görüşü ilə böyük paralellik göstərir. Və bu vəziyyət, dinin cəmiyyət həyatından çıxarılmağa çalışılmasının nə qədər böyük bir təhlükə olduğunu və belə bir cəhdin cəmiyyətləri necə böyük fəlakətlərin içinə sürüklədiyini bir daha bizlərə göstərməsi baxımından ibrət vericidir. Dinin olmadığı yerdə hər cür azğınlığın və vəhşiliyin yaşanacağı, Allah qorxusunu bilməyən insanların qan tökməkdən zövq alan canavara belə

çevrilə biləcəyi satanizm nümunəsində ən parlaq şəkildə görülür. Bu gün başda gənclər olmaqla bir çox insan satanizm bəlasının içinə sürüklənirsə, bunda dindən kənar bir həyatı nəzərdə tutan ideologiyaların birbaşa payı vardır. Bu səbəblə, "pisliklərin azad və sərhədsiz olaraq yaşanmasını" müdafiə edən, "qayda tanımazlığı və qanunsuzluğu" təməl qanun halına gətirən, əxlaqi hər cür dəyərə savaş açmış olan satanizmin nəzərdə tutduğu həyata nəzər salmazdan əvvəl, satanizmin ideoloji əlaqələrini araşdırmaqda fayda vardır.

## Satanizm: Ateist və materialist bir din

Satanizm, insanların düşdükləri mənəvi boşluğun nəticələrindən biridir. 19-cu əsrdə inkişaf edən və dünyanı sadəcə maddi dəyərlərin məcmusu olaraq göstərən düşüncə və cərəyanların hamısı, insanları böyük mənəvi boşluq içinə sürükləmişdir. Bu tarixə qədər dini dəyərlər cəmiyyətin ayrılmaz bir parçası ikən, bu tarixdən etibarən sosial çevriliş yaşanmış və din əxlaqı gözardı edilməyə başlanmışdır. Hətta çox vaxt mənəvi dəyərlər şüurlu olaraq cəmiyyət həyatından çıxarılmağa çalışılmışdır. 19-cu əsrdə inkişaf edən cərəyanların ən əhəmiyyətli ortaq nöqtələrindən biri din əxlaqına və iman edənlərə qarşı olmaları və Allah qorxusu olmadan da əxlaq ola biləcəyini müdafiə etmələridir. Ancaq din əxlaqının cəmiyyət həyatından çıxarılması böyük boşluğa səbəb olmuş, Allah qorxusu olmadan əxlaq olmasının isə əsla mümkün ola bilməyəcəyi yaşanan təcrübələrlə isbat edilmişdir.

Bu boşluq içində insanlar üçün nəyin yaxşı, nəyin pis olduğuna dair dəyərlər də mənasını itirməyə başlamış, böyük anlayış qarışıqlığı gündəmə gəlmişdir. Yalnız varlı və yaxşı həyat yaşamaq, daha çox qazanmaq və daha çox istehlak etmək, bunun üçün lazım olarsa digər insanları əzmək və istismar etmək kimi təlqinlərin təsiri altında qalan cəmiyyətlərdə bir müddət sonra, yalnız özünü düşünən, fədakarlığı bir növ saflıq olaraq qiymətləndirən, ancaq maraqlarına uyduğu müddətcə yaxşılıq edən insanlar formalaşmağa başlamışdır. Bütün bunlar insan ruhunun ən əhəmiyyətli xüsusiyyətləri və ən təməl ehtiyacları olan sevgi, mərhəmət, şəfqət, dostluq, sədaqət, vəfa kimi dəyərlərin unudulmasına, yaxşılığın yerini pisliyin almasına səbəb olmuşdur. Bu vəziyyət, din əxlaqına qarşı olan kütlələr tərəfindən xüsusi olaraq planlanmış, mənəvi dəyərlərin ortadan qaldırılması ilə süni olaraq belə mühit yaradılmışdır.

Məhz bu sosial transformasiya prosesi sonunda ortaya çıxan ən təhlükəli cərəyanlardan biri satanizmdir. Satanizm bu dövrdə inkişaf edən materialist və ateist cərəyanların məhsulu olaraq çıxmış, vəhşiliyin və azğınlığın bu fəlsəfələr tərəfindən necə adiləşdirildiyinin ən əhəmiyyətli nümunələrindən biri olmuşdur. Diqqət edilərsə, bu

cərəyanlar tərəfindən müdafiə olunan dəyərlərlə satanizmin qarşıya qoyduğu iddialar bir-biri ilə tam uyğunluq təşkil edir.

Materializm və ateizm hər şeyin bu dünyadan ibarət olduğunu, həyat sona çatdığında isə hər şeyin yox olacağını irəli sürür. Buna görə insanlar heç bir şeyə qarşı məsul deyillər. Əgər məsuliyyət yoxdursa, insanın pisliyi əngəlləməsi üçün də səbəb qalmır. Halbuki bu, insanın özünü aldatmasından başqa bir şey deyil. Bütün kainatı və insanlığı üstün və güclü Yaradıcı olan Allah yaratmışdır və hər insan Yaradıcımıza qarşı məsuldur. İnsanın dünyadakı varlığı müəyyən müddət ilə məhduddur. Bu müddət bitdikdə hər kəs ölüm ilə qarşılaşacaq, ölümünün ardından da hər insan həyatı boyunca keçirdiyi hər anın hesabını vermək üçün Rəbbimizin hüzuruna çıxacaq. Məsuliyyətsiz olduqlarını və hesab verməyəcəklərini düşünərək həyatlarını davam etdirənlər isə o gün böyük itkiyə məruz qalacaqlar.

Satanizmin materializmdən və ateizmdən necə təsirləndiyini anlamaq üçün satanist qruplar tərəfindən yazılan əsərlərə baxmaq yetərli olacaq. Məsələn, Şeytan Kilsəsinin nəşr etdiyi yazılara baxdığımızda bu qrupun üzvlərinin ateist olduqlarını görərik. Bununla yanaşı, satanistlər materialistdirlər, sadəcə maddənin varlığına inanırlar. Satanistlərin əksəriyyəti Allahın varlığını inkar etdikləri kimi, bütün metafizik varlıqları (məsələn, mələkləri) də inkar edərlər. Bu səbəbdən bu kəslər əslində şeytanın varlığına da inanmazlar. Adları "şeytana tapınanlar" olmasına baxmayaraq, şeytan deyə bir varlığı qəbul etmirlər. Onlara görə şeytan, din düşmənçiliyinin simvoludur. Şeytan Kilsəsi tərəfindən nəşr olunan *“A Description of Satanism“* (Satanizmin Tərifi) adlı sənəddə, bu fikirlər ifadə edilir:

*Satanizm eynilə buddizm kimi ateist dindir. Hərəkətlərimiz səbəbiylə hesab verəcəyimiz orqan yoxdur.* ***Satanistlər, müqəddəs kitabın müqəddəsliyinə, mələklərə, cənnət və cəhənnəmə, müqəddəs kitabda izah edilən şeytana, pis ruhların, yaxşı ruhların və cinlərin varlığına inanmazlar.*** *Materializm və realizm, satanizmin başda gələn əmrləridir.* ***Satanizm ateistdir. Biz əslində otodeistik, yəni özümüzə tapınırıq.*** *Satanizm dinin ziddidir, yəni dinsizlikdir.* [6]

Yenə Şeytan Kilsəsi nəşrləri arasında mövcud olan *“Feared Religion”* (Qorxulan Din) başlıqlı bir yazıda isə satanistlərin həqiqi inancı belə açıqlanır.

Satanistlər fövqəltəbiliyə inanmazlar; Allahın da, şeytanın da varlığına iman etməzlər. Satanist üçün, insan özünün əsl tanrısıdır. **Şeytan öz heyvani və qürurlu təbiətinə görə yaşayan insanın simvoludur.** Şeytan özünə tapınılacaq şüurlu varlıq deyil, daha çox hər insanın içində olan və tək bir toxunuşla hərəkətə keçəcək olan potensial qüvvədir. [7]

*The Washington Post* qəzetində satanistlərlə əlaqədar verilən xəbərdə də Laveyin satanizmi izah edilərkən, Lavey qrupunun şeytanın varlığına iman gətirmədikləri, şeytanın

özünə tapınmadıqları vurğulanır. **Laveyə görə şeytan, "insanın şəhvətli, acgöz, intiqam alıcı təbiətinin" başqa sözlə, bütün eqosunun simvoludur.**[8] Diqqət edilərsə, satanizmin təməlində insanın təbiətini vəhşi və mərhəmətsiz olaraq görmək vardır. Halbuki mərhəmətsizlik, vəhşilik, zorakılıq, acgözlük, eqoizm, intiqam almaq kimi xüsusiyyətlər insanın deyil, nəfsin xüsusiyyətləridir və daha əvvəl də ifadə etdiyimiz kimi, hər insan bunlara əngəl ola biləcək vicdan və iradəyə sahibdir.

Satanistlərin insan təbiəti haqqındakı iddialarında bu qədər israrçı olmalarının əsl səbəbi isə, Darvinin təkamül nəzəriyyəsindən çox təsirlənmiş olmalarıdır. Saxta elmi nəzəriyyə kimi təqdim edilən bu cəfəngiyat, insanlığa fəlakət gətirən bir çox cərəyana olduğu kimi, satanizmə də fikri dayaq meydana gətirir. Necə ki, yuxarıdakı sitatda bəhs edilən ifadə olduqca diqqət çəkicidir: **"Öz heyvani və qürurlu təbiətinə görə yaşayan insan" ...** Bu ifadə bir mənada satanizmin əsasını təmsil edər. Satanistlərin azğın fikirlərinə görə, insan təkamül nəticəsində ortaya çıxmış heyvan növüdür və heyvan şəklində yaşamalıdır. Satanizm müdafiəçilərindən Rick Hall, *"Satan Really Wants You"* (Şeytan həqiqətən səni istəyir) başlıqlı məqaləsində, bir tərəfdən satanist materializmi təsvir edərkən, bir tərəfdən də darvinizm ilə satanizm arasındakı əlaqəni belə vurğulayır:

*Satanist fəlsəfənin materializmi, fiziki varlıqdan fərqli, ya da daha yüksək olan hər cür mənəvi dəyəri rədd edər ... Lavey elitistdi və sosial darvinist idi.* [9]

Satanistlərin qavraya bilmədiyi digər əhəmiyyətli həqiqət də insanın "təbiətinin qürurlu" digər ifadəylə heyvani olmadığıdır. Allah insana Öz ruhundan üfürmüş və onu ən gözəl şəkildə yaratmışdır. İnsan ruhu həssas quruluşa malikdir və mərhəmətdən, şəfqətdən, sevgidən, incəlikdən, insaniyyətdən, dostluqdan zövq alacaq şəkildə yaradılmışdır. İnsanı pisliyə və mərhəmətsiz olmağa təşviq edən ünsür, şeytan tərəfindən istiqamətləndirilən nəfsin səsidir. Və nəfsə uymaq insanı qorxunc bəlaların içinə sürükləyər.

## Satanizm və Darvinin təkamül nəzəriyyəsi

Satanizm haqqında tədqiqat aparan birinin qarşılaşacağı ən əhəmiyyətli məlumatlardan biri, bu fəlsəfənin yuxarıda ifadə etdiyimiz kimi sosial Darvinizm ilə olan birə-bir əlaqəsi olacaq. Satanistlərin nəzərdə tutduğu cəmiyyət həyatını şəkilləndirən, həyata baxış aspektlərinin təməlini meydana gətirən ünsür darvinizmdir və bu bir çox satanist tərəfindən açıq şəkildə ifadə edilir. Satanistlərin qatı darvinizm müdafiəçisi olduqları bir çox yayımda da vurğulanan gerçəkdir. Satanizm üzərində apardığı

tədqiqatlar ilə tanınan Rusiya Pomor Universitetindən Dr. Ruald Kristiansın satanizmə verdiyi tərif bunlardan biridir:

*Satanizmi ən yaxşı şəkildə təsvir etmək istəsək* ***satanizm****, xristianlığı baş düşmən olaraq görən* ***ateist sosial darvinizmin ən radikal halıdır.*** *Satanizmin əslində, fövqəltəbii pis varlıqla əlaqə yaratmağa çalışmaq deyil,* ***həyat mübarizəsində sağ qala bilmək üçün insanın içindəki xüsusiyyətləri inkişaf etdirməyə səy göstərməsidir****. Bu xüsusiyyətlərin inkişafı üçün cadugər ritualları etmək lazımdır.* [10]

Şeytan Kilsəsinin qurucusu Anton Lavey ilə ölümündən qısa müddət əvvəl reportaj aparan *MF* jurnalı isə, Laveyin ən əhəmiyyətli xüsusiyyətinin sosial darvinizmi kütlələrə yayması olduğunu bu sözlərlə dilə gətirir:

*Anton Lavey, 1960-cı illərin sonunda hippilikdən və xristianlığın cansıxıcı əxlaqi dəyərlərindən bezən fərdlər üçün, sosial darvinizm ideologiyasını və müsbət düşüncəni başa düşülən formaya salaraq yeni bir yol meydana gətirmişdi.* [11]

Əlbəttə satanistlərin, xristianlığın dəyərlərini cansıxıcı kimi görmələrinin səbəbi öz mühakimə dəyərlərindəki anormallıqlardan qaynaqlanır. Çünki satanistlər üçün cansıxıcılığı qırmaq; qan tökmək, pislik etmək, insanlara zərər vemək, cəmiyyətin nizamını pozmaq mənalarındadır. Bu səbəblə də din əxlaqının hüzuru, təhlükəsizliyi və sülhü əmr edən dəyərləri, satanistlər tərəfindən -din əxlaqının fəzilətini qavraya bilmədikləri və yaşaya bilmədikləri üçün- bu şəkildə qiymətləndirilə bilər.

Şeytan Kilsəsi nəşrləri arasında olan *"Feared Religion"* (Qorxulan Din) başlıqlı yazıda bəhs edilən **"Satanizm, insanın heyvan olaraq qəbul edilməsi üçün vardır"**[12] maddəsi də satanizmin, darvinist dünya görüşünü cəmiyyətlərə yaymağı ən əhəmiyyətli hədəflərdən biri olaraq gördüyünü göstərməsi baxımından diqqət çəkicidir. Şeytan Kilsəsinin ağıl və məntiqdən kənar fikirlərini ehtiva edən digər əhəmiyyətli bəyanatı olan *"The Nine Satanic Statements"* (Doqquz Şeytani Prinsip)-in yeddincisi isə belədir:

***Şeytan insanı hər hansı bir heyvan olaraq təsvir edər. Bu heyvan bəzən, digər dörd ayaq üzərində gəzən heyvanlardan daha yaxşı, bəzən də daha pisdir.*** [13]

## "Sadəcə şəhvətinə görə yaşayan vəhşi heyvan"

Şeytan Kilsəsinin bütün nəşrlərində insan üçün təkidlə "carnal beast" termini istifadə edilir. Bu sözün dilimizdə mənası "sadəcə şəhvətinə görə yaşayan vəhşi heyvan" deməkdir. Satanist rahib Piter Qilmorun da ifadəsi ilə **"insan heyvandır və heyvan kimi davranmağa məcburdur."** Satanistlərin, insanlar arasındakı əlaqələrə və insanın digər

canlılara qarşı olan rəftarına baxış bucaqlarının altında məhz bu azğın məntiq vardır: İnsan bir növ heyvandır və heyvani rəftarlar göstərməkdən çəkinməməlidir. Məsələn, satanistlər təcavüzü haqlı görürlər, çünki onlara görə təbiətdə vəhşi heyvanlar arasında təcavüz qanunidir. Satanistlərə görə bir insanın həyatına qəsd etmək də eyni şəkildə son dərəcə normaldır, çünki təbiətdə heyvanlar arasında mərhəmətsiz şəkildə həyatda qalmaq mübarizəsi davam edir. Heyvanlara əzab verərək öldürmək də eyni məntiqin məhsuludur. Əgər insan "carnal beast", yəni yalnız şəhvətinə görə yaşayan vəhşi heyvandırsa, buna görə nəyisə etməkdən çəkinməsinə ehtiyac yoxdur. Satanistlərə görə, heyvani şəkildə yaşanılan həyat sonuna qədər dəstəklənməlidir və müdafiə edilməlidir. Heyvani duyğularla hərəkət edən insanların meydana gətirdiyi cəmiyyətin necə olacağını təxmin etmək isə heç də çətin deyil. Bu vəziyyətdə, belə məntiqlə yola çıxan insanların dəhşət dolu cinayətlər işləmələrinin, qaranlıq iç dünyaya sahib olmalarının, qeyri-sabitlik sərgiləmələrini qəribsəməmək lazımdır.

Yaxşı, satanistlər insanın "yalnız şəhvətinə görə yaşayan vəhşi heyvan" olduğu inancına haradan qapılmışlar? Bu sualın tək cavabı vardır: Təkamül nəzəriyyəsi. Satanizm haqqında hazırladığı müddəada Dr. Ruald Kristiansın bu qaranlıq dini təsvir edərkən istifadə etdiyi "**bir növ sosial darvinist din"** tərifi, təkamül nəzəriyyəsinin satanizmin fikri quruluşu daxilindəki yerini vurğulaması baxımından diqqət çəkicidir:

***Satanizm, ən güclülərin zəiflər üzərindəki hakimiyyətini müdafiə edən, çünki ancaq bu yolla insanlığın bioloji növ olaraq irəliləyə biləcəyinə və təbii və ictimai təkamüldəki liderlik roluna sahib çıxa biləcəyinə inanan bir növ sosial darvinist "din" olaraq qəbul edilə bilər.*** [14]

*"A Description of Satanism"* (Satanizmin Təsviri) adlı məqalədə isə, satanizmin təməl dayaq nöqtələri, dünya görüşü və satanizmin darvinizmin ayrılmaz bir hissəsi olduğu belə ifadə edilir:

*Bizim prinsiplərimizə görə, bütün insanlar və heyvanlar ortaq və bəsit olan bioloji qaynaqdan gəlir. Əslində* ***SATANİZM, İNSANLARIN İNKİŞAF ETMİŞ HEYVANDAN BAŞQA BİR ŞEY OLMADIQLARINA İNANIR.*** *Şanslı olaraq təkamülləşməyimiz və həyatda qalmağımız istisna olmaqla, yaradılışda heç bir xüsusi yerimiz yoxdur ... Satanistlər özlərini (və bütün insanları) heyvan olaraq xarakterizə edər və Allahın özlərinə ruh verdiyi insanlar olaraq görməyə qarşı çıxarlar ...* [15]

Satanistlərin elmi olaraq tamamilə çökmüş, səhvləri və yanlışları ifşa olan təkamül nəzəriyyəsini belə israrla müdafiə etmələri diqqət çəkicidir. Halbuki inkişaf edən elmin bütün sahələri yaradılışın inkar edilə bilməz gerçək olduğunu ortaya qoyur. İdeoloji qayğılarla darvinizmə bağlı qalanlar böyük azğınlıq içindədirlər. Darvinizm bir daha ayağa qalxa bilməyəcək şəkildə yıxılmış və tarixin səhifələri arasına basdırılmışdır.

Kainatı və kainatda olan bütün varlıqları Allah yaratmışdır. Heç bir şey kor təsadüflərin əsəri deyil. Yaradılışın dəlilləri kainatın bir çox nöqtəsində açıq şəkildə görülərkən, kainatdakı qüsursuz nizamın və mükəmməlliyin kor təsadüflərin əsəri olduğunu iddia etmək böyük cahillikdən başqa bir şey deyil. Bu cür azğın bir inanca da ancaq satanistlər kimi, xəstə zehinləri olan kəslər sahib çıxa bilər.

Darvinist yanaşmanın nəticəsi olaraq, satanistlər bütün insanların bərabər olduğuna inanmazlar. Onlara görə bəzi insanlar zaman ərzində digərlərinə görə daha çox inkişaf etmiş və bəziləri də təkamül cədvəlinin alt pillələrində qalmışlar. Bu inanc, sonrakı sətirlərdə də görəcəyimiz kimi, satanizm ilə faşizm arasında təbii yaxınlığa səbəb olmuşdur. Ancaq satanizm faşizm kimi yalnız cəmiyyətlər və irqlər arasındakı müxtəlifliyi müdafiə etməklə qalmaz, eyni irq və cəmiyyət içində də bəzi insanların digərlərinə görə daha üstün olduğunu müdafiə edir. Buna görə pisliyin gücünü qavramış və buna inanmış olanlar digərlərinə görə daha üstündür və onlara istədikləri kimi davranma haqqına sahibdirlər.

Bütün bu məlumatların göstərdiyi kimi, satanizm təkamül nəzəriyyəsini mərkəzinə yerləşdirmiş ateist dindir. Təkamül nəzəriyyəsi insanın heyvan növü olduğunu müdafiə edir, satanistlər isə buna görə davranış və düşüncə qəlibləri inkişaf etdirirlər. Təkamül nəzəriyyəsini müdafiə edən bioloqların, filosofların və mütəfəkkirlərin kitablarına baxanda, orada da yuxarıda verdiyimiz satanist məqalələrdə bəhs edilən cümlələrin demək olar ki, eynisini görə bilərsiniz. Məsələn, az əvvəl sitat gətirdiyimiz satanist ifadələrin bənzərlərini, Riçard Dokinz, Stefen C. Quld, Deniel Denet, Karl Saqan kimi darvinist və ateist mütəfəkkirlərin kitablarında da tapmaq mümkündür. Onlar da insanları bir növ inkişaf etmiş heyvan, həyatı isə mübarizə sahəsi olaraq görür, ancaq güclü olanların ayaqda qala biləcəklərini ifadə edir, yəni insanın təbiətini satanistlərin özlərinə təyin etdikləri şəkildə açıqlayırlar.

Məsələn, "*Meet My Cousin the Chimpanzee*" (Qohumum Şimpanze ilə tanış olun) başlıqlı yazısında, məşhur təkamülçü Riçard Dovkinz uzun-uzun insanların atasının meymunlar olduğu cəfəngiyatını izah edir və bunları deyir:

*Meymunlara bənzədiyimizi qəbul edirik, ancaq gerçəkdə meymun olduğumuzun çox zaman fərqində deyilik ... şimpanzelərin, qorillaları və oranqutanları özünə daxil edən, amma insanları kənarda buraxan tək təbii siniflndirmə belə yoxdur ... Özümüz də daxil olmaqla yaşayan bütün böyük meymunlar, ailə-uşaq bağı ilə bir-birinə bağlıdır.* [16]

Atəşli təkamül müdafiəçisi olan Stefen Cey Quld isə "*Darvin və sonrası*" adlı kitabında, **"mərhəmətsizlik, təcavüzkarlıq, qısaca ümumi pislik, meymunabənzər atalarımızdan bizə qalan qandallardır"** düşüncəsini müdafiə edir. [17] Bir başqa məqaləsində, insanlığın və kainatın təsadüflərin əsəri olduqlarını belə iddia edir:

*Bu gün buradayıq, çünki bir qrup qəribə balıq üzgəclərini quru heyvanlarında olan ayaqlara çevirə biləcək anatomiyaya sahib idilər; çünki dünya buz dövründə tam mənası ilə heç bir zaman donmadı; çünki bundan dörddə bir milyon il əvvəl Afrikadan çıxan kiçik və zəif canlılar bu günə qədər həyatda qalmağı bacardırlar. Bütün bunlar üçün daha ali cavablar axtara bilərsiniz, amma belə bir cavab yoxdur* [18] .

Göründüyü kimi, elm adına ortaya çıxan bu kəslərin qarşıya qoyduqları elm və ağıldan uzaq iddialar, satanizm kimi bir çox azğın ideologiyaya fikri zəmin meydana gətirir. Bu kəslər təkidlə bəhs etdiyimiz yanlış düşüncələri müdafiə edərək, bütün insanlığı ölçüləri çox geniş miqyaslı fəlakətlərin içinə salır. Halbuki, kainatı və insanı Allah üstün sənət ilə yaratmışdır. Hər insane onu yaradan Allaha qarşı məsuldur. Bu, açıq-aydın bir həqiqətdir. Bu həqiqətdən qaçmağa çalışanlar, bunun üçün ağılsız yalanlar irəli sürənlər isə ölümləri ilə birlikdə nə qədər böyük xətanın içində olduqlarını qavrayacaqlar.

## Satanistlərin xəyal etdiyi sosial darvinist cəmiyyət

Təkamül nəzəriyyəsinin nəzərdə tutduğu "insan heyvandır" şüarını, fəlsəfələrinin təməli olaraq qəbul edən satanistlər, insanların heyvan kimi yaşadığı və davrandığı dünya qurma həsrətindədirlər. Satanizmə görə ideal cəmiyyət nizamı tamamilə darvinist dəyərlərin hakim olduğu cəmiyyətdir. Xəyal etdikləri bu dünyanın təməl qaydası, “güclülər zəifləri əzər” prinsipidir. Satanizmin yanlış inancına görə hər insan, varlığını davam etdirə bilmək və “həyat mübarizəsində” müvəffəqiyyətli ola bilmək üçün özünü inkişaf etdirmək və “təkamül” olaraq irəlilətmək məcburiyyətindədir. Bunu bacara bilməyən insan tək buraxılaraq, yox olmağa tərk edilməlidir. Eyni qayda ictimai sahədə də etibarlıdır. Bunu bacara bilməyən cəmiyyətlər, mədəniyyətlər və millətlər də yox olmağı qəbul etməlidirlər. Tam mənası ilə sosial darvinist ideologiya olan satanizmə görə əhali planlaşdırılmasının ən təsirli yolu da zəif olanların yox olmasını qəbul etməklə təmin ediləcək. [19]

Şeytan Kilsəsi rahiblərindən yazıçı Bödn H. Volf 1976-ci ildə nəşr olunan “*Şeytan İncili”nin* ön sözündə satanizmin həyat fikrini bu şəkildə açıqlayır:

*Satanizm lovğa, eqoist və mərhəmətsiz fəlsəfədir. Bu fəlsəfə, insanların doğuşdan eqoist və şiddətə meyilli varlıqlar olduğu, həyatın Darvinin “həyatda qalma mübarizəsindən ibarət olduğu və yalnız ən güclülərin həyatda qaldığı fikrinə əsaslanır. Yer üzünün isə -şəhərləşmiş cəmiyyətlər də daxil olmaq üzrə-balta girməmiş meşələrdəkinə bənzər, bitmək bilməyən rəqabəti qazanmaq üçün döyüşçülər tərəfindən idarə olunması inancına əsaslanır.* [20]

Volfun da söylədiyi kimi satanizmin nəzərdə tutduğu həyat şəkli “qarşıdurmaya, rəqabətə, şiddətə, eqoizmə, mərhəmətsizliyə” əsaslanır. Şeytan Kilsəsinin “baş rahib”lərindən Piter H. Qilmor da bunu açıq şəkildə ifadə edir:

*Dövrümüzdə satanizmin əslində nə olduğuna birlikdə baxaq: Elitizmə (seçilmişlərin iqtidarına) və sosial darvinizmə əsaslanan, bacarıqlıların ağılsızlar üzərində hakimiyyətinin yenidən qurulmasını müdafiə edən ... və son iki min ildir insan növünün təkamülünü axsatmış olan "bərabərlik" əfsanəsini kökündən qaldırmağı istəyən mərhəmətsiz din ...* [21]

Piter Qilmorun “son iki min il”-dən deyərək nəzərdə tutduğu, xristianlıqdır. Xristianlıqdan əvvəl avropalı cəmiyyətlər bütpərəst və ya ateist mədəniyyətə sahib idilər və bu mədəniyyətlərin təməl xüsusiyyətlərindən biri, insanların barbar, vəhşi və mərhəmətsiz olması idi. Şəfqət, mərhəmət, zəiflərə kömək, insanlar arasında bərabərlik və ədalət kimi ilahi dinlərə aid olan əxlaqi anlayışlar, xristianlıq vəsiləsiylə Avropa cəmiyyətləri tərəfindən öyrənildi. Məhz satanistlərin məqsədi, “haqlı olan güclüdür” prinsipinə əsaslanan bu əxlaqi anlayışları tamamilə ortadan qaldırmaq və bunun yerinə “güclü olan haqlıdır” prinsipinə əsaslanan sosial darvinist dünya qurmaqdır.

Necə ki, Qilmor məqaləsinin davamında bunu açıq şəkildə dilə gətirməkdən çəkinməz:

*Satanistlər insanlığın ictimai quruluşunu fərqli laylara ayrılmış şəkildə görürlər, bu səbəbdən hər insan öz təbii qabiliyyətləri (və ya bunların yoxluğu) nəticəsində fərqli bir yerə gəlir. Ən güclülərin həyatda qalması prinsipi (satanistlər tərəfindən) cəmiyyətin hər səviyyəsində müdafiə edilir; fərdlərin həyatda qalması və ya itirməsində, özlərini ayaqda tuta bilməyən millətlərin bunun nəticələrinə dözməsində də. Hər səviyyədə ediləcək hər cür kömək, mənfəət qarşılığında olmalıdır. Bunun sayəsində, yəni zəiflərin sosial darvinizmin nəticələrinə dözmələrinə icazə verilməsiylə, dünya əhalisində əhəmiyyətli azalma olacaq. Necə ki, təbiət hər zaman öz uşaqlarını gücləndirmək və lazım olsa ortadan qaldırmaq üçün hərəkətə keçmişdir. Bu ağrılıdır, amma dünyanın gerçəyidir .... 22*

Qilmorun bu məqaləsini şərh edərkən Dr. Kristiansın, bəhs edilən ideologiyanın praktikada tətbiq olunması vəziyyətində ictimai nizamın və kasıblara və köməyə möhtac olanlara yardım aparan hər cür proqramın sona çatacağına diqqət çəkər. Bu vəziyyətdə kömək proqramlarının yerini, zəngin və güclü olan fərdlərə məqsədlərinə çata bilmək üçün hər cür asanlığın təmin ediləcəyi tətbiqlər alacaq. Və bu qaydalara əməl etməyən kəslər də uyğun şəkildə bu rəftarlarının qarşılığını alacaq, məsələn, cəmiyyətin qabaqcıllarının ehtiyaclarını qarşılamaq üçün iş düşərgələrində məcburi işçi olaraq istifadə ediləcəklər. [23]

Göründüyü kimi, satanizm və satanizmin ən əhəmiyyətli fikri dayağı olan darvinizmin təklif etdiyi cəmiyyət modelləri insanlığı böyük fəlakətə sürükləyəcək modeldir. Allahın insanlara əmr etdiyi və Quranda bildirilən əxlaq isə, cəmiyyətləri hər zaman rifaha, hüzura və sülhə aparacaq əxlaqdır. Quran əxlaqının yaşandığı cəmiyyətlərdə düşkünlər və ehtiyac içində olanlar qorunur, bütün insanlara bərabər davranılır, məzlumun haqqı hər zaman müdafiə olunur.

Müasir satanizm üzərində böyük təsiri olan Alister Crouli isə, özünə şeytandan gəldiyini iddia etdiyi mesajlarda bunların bildirildiyini söyləmişdir:

*Burax mənim xidmətçilərimin sayı az və gizli olsun, onlar daha çoxlarını və bilinənləri idarə edəcəklər ...* ***Cəmiyyətin xaricində qalanlar və ayaqda dura bilməyənlərlə bizim işimiz ola bilməz, burax onları öz acizlikləri içində ölsünlər. Onlara mərhəmət bəsləmə ... Yıxılana mərhəmət etmə!*** *Onlar məni heç maraqlandırmır. Mən onlar üçün deyiləm. Onlara dəstək olma, dəstək olanlardan və dəstək olunanlardan nifrət edirəm.* [24]

Qısacası, Şeytan Kilsəsi bunu müdafiə edir: "Kasıblara, aclara, zəiflərə kömək etməyin, buraxın ölsünlər. Bu, təbiətin qanunudur. Beləcə əhali azalar və güclülər daha çox imkan əldə edərlər!" Satanist ideologiyanın bu dəlisov anlayışı ilə qurulacaq olan cəmiyyət nizamı vəhşi meşə həyatından fərqlənməyəcək.

Bu zalım və mərhəmətsiz sistem əslində satanistlərin öz kəşfi deyil. Bu fikirləri ilk dəfə dilə gətirən insan, 19-cu əsrdə yaşamış olan İngilis iqtisadçısı Tomas Maltusdur. Maltus, *“An Essay on the Principle of Population”* (Əhali prinsipi üzərinə bir sınaq) adlı kitabında, dünya əhalisinin artımını əngəlləmək üçün, “kasıbları və zəifləri qorumaqdan imtina edilməli olduğunu” müdafiə etmişdir. *“Nazilərin elmi arxa planı”* adlı məqalədə isə, Maltusun populyasiya ilə əlaqədar fikirləri və 19-cu əsr Avropasının rəhbərlərinin buna verdiyi əhəmiyyət belə çatdırılır:

*19-cu əsrin ilk yarısında Avropada idarəçi sinfin üzvləri, yeni kəşf edilən “əhali artımı problemi”ni müzakirə etmək və kasıbların ölüm nisbətlərini artırmaq üçün, Maltusun fikirlərini tətbiq etmə üsullarını planlamaq üçün bir araya gəldilər. Vardıqları nəticə qısaca belə idi: "Kasıblara təmizliyi tövsiyə etmək yerinə onları tam əks olan vərdişlərə təşviq etməliyik. Şəhərlərimizdəki küçələri daha dar etməliyik, daha çox insanı evlərə doldurmalıyıq və vəba gətirməyə çalışmalıyıq. Ölkəmizdə kəndlərimizi durğun sulara yaxın etməliyik, bataqlıqlarda yaşamağı təşviq etməliyik və s. ..."* [25]

Maltusun nəzəriyyəsi çox tətbiq olunmamış, amma bir başqa nəzəriyyəyə yol açdığı üçün tarixə keçmişdir. Bəhsi keçən nəzəriyyə Darvinin təkamül nəzəriyyəsidir. Darvin, öz nəzəriyyəsinin təməl daşları olan, “həyat mübarizəsi” və “güclü olmayan fərdlərin elənməsi kimi anlayışları Maltusdan təsirlənərək inkişaf etdirmişdir və məqalələrində də bunu açıq şəkildə ifadə etmişdir. Açıq şəkildə görüldüyü kimi, satanistlərin dünya görüşü Darvinin nəzəriyyəsi ilə eyni qaynaqdan bəslənir və hər ikisinin də gəldiyi nəticə "sosial

darvinizmdir", yəni Darvinin nəzəriyyəsinin cəmiyyətə uyğunlaşdırılmasından başqa bir şey deyil.

Bununla yanaşı, əxlaqi dəyərlərin düşmən olaraq görüldüyü satanist ortamda, hər cür əxlaqsızlıq yaşanacaq, hətta soyğunlar, cinayətlər təşviq olunacaq. Çünki bu cahil fəlsəfəyə görə bunlar insanın təbiətində olan və qarşı çıxılmamalı pisliklərdir.

Halbuki bunların hamısını Allah qadağan etmişdir. Allah insanlara kasıblara kömək etməyi, insanlara yaxşı davranmağı, ehtiyacı olanı qoruyub mühafizə etməyi, yardımlaşmağı, pisliyi yaxşılıqla əvəz etməyi, səbir etməyi, mülayim xasiyyətli olmağı, mərhəmətli və tolerant davranmağı əmr etmişdir. Mövzuyla əlaqədar ayələrdən biri belədir:

**Qoy aranızda olan fəzilət və sərvət sahibləri qohumlara, miskinlərə və Allah yolunda hicrət edənlərə heç bir şey verməyəcəklərinə and içməsinlər. Qoy əfv edib bağışlasınlar. Məgər siz Allahın sizi bağışlamasını istəmirsinizmi? Allah Bağışlayandır, Rəhmlidir. (Nur surəsi, 22)**

Allahın əmrlərinə görə yaşayan insanların meydana gətirdiyi cəmiyyətlər, gözəl əxlaqın yaşandığı, hər kəsin bir-birinə sevgi və hörmət göstərdiyi, bir-birinə mərhəmət və şəfqətlə yaxınlaşdığı cəmiyyətlər olur. Bu da cəmiyyətə sülh, hüzur, sükunət və təhlükəsizliyin hakim olmasını təmin edər.

## Satanizm və faşizm

Daha əvvəl də ifadə etdiyimiz kimi, satanistlərin darvinizmə duyduqları yaxınlıq, faşizm və satanizm arasında təbii ittifaqın inkişafını təmin etmişdir. Bilindiyi kimi, faşizm də eynilə satanizm kimi təməl fəlsəfəsini sosial darvinizmə dayandırır. Faşizmə görə dünya, fərqli irqlər arasındakı qarşıdurma və "həyat mübarizəsi" sahəsidir. Qan tökmək, müharibə etmək, digər insanlara acı çəkdirmək faşistlərin gözündə həm guya müqəddəs bir vəzifə, həm də zövqdür. (Ətraflı məlumat üçün bax. Harun Yəhya, *Darvinizmin Qanlı İdeologiyası: Faşizm* , İstanbul, 2001)

Faşizm və satanizm arasındakı ortaq nöqtələrin digəri, 19-cu əsrin ateist və din düşməni filosoflarını Nitşseyə olan heyranlıqlarıdır. Nitşse, bütün ilahi dinlərə qarşı nifrət dolu yazılar yazmış, özünü "dəccal" olaraq təyin etmiş və ağlını itirərək ölmüşdür. Məqalələrində sevgi, şəfqət, mərhəmət kimi əxlaqi ərdəmlərə hücum etmiş, bunların

yerinə dünyada qəddarlığın hakim olmasını və yalnız güc sahiblərinin hakimiyyət qurmasını müdafiə etmişdir. Nitşsenin fikirlərinə sahib çıxanların başında Nazilər gəlir və bu gün də neo-Nazi qrupları Nitşse təlimini müdafiə edir. Digər Nitşse pərəstişkarının axını da, başda ifadə etdiyimiz kimi, satanistlərdir. Şeytan Kilsəsi tərəfindən nəşr olunan *“A Description of Satanism”* (Satanizmin tərifi) adlı məqalədə belə deyilir:

*Nitşse ümumiyyətlə, satanist düşüncəli insan olaraq xatırlanır. Laveyin Nitşsedən təsirlənmiş olduğu isə şübhəsizdir; Lavey ondan bəhrələnmişdir.* [26]

Satanistlər, Avropa və Amerikadakı faşist qruplarla əməkdaşlıq içində olduqlarını açıq şəkildə qəbul etməkdən çəkinməzlər. Məsələn, Anton Lavey və satanizmin öndə gələn digər adı Blenç Barton, satanizm ilə faşizm arasındakı əlaqəyə dair sualları belə cavablandırmışdır:

***Anton Lavey: Bu müqəddəs olmayan ittifaqdır. O cür insanların (faşistlərin) çoxu indiyə qədər bizimlə əlaqə qurdular. Həqiqətən də nasional sosialist Almaniyadakı (Nazi Almaniyasındakı) anti-xristian güc satanistlər üçün olduqca cəzbedicidir. Dram, işıqlandırma və xareoqrafiya ilə milyonlarla insanı (din əleyhinə) hərəkətə keçirmişlər.***

*Blenç Barton: satanizmlə faşizm arasında ortaq zəmin meydana gətirən ən əhəmiyyətli ünsür estetikadır. Nasional sosializm (Nasizm) və satanizmin estetik anlayışları bir birinə paraleldir.* [27]

Bartonun bəhs etdiyi "estetika" isə, əslində bu iki qaranlıq ideologiyanın ruh halını əks etdirən çirkinliklərdən və mənfur şeylərdən başqa bir şey deyil. Satanist-Faşist "estetika" anlayışının ən yaxşı nümunələrini, bu fəlsəfəni mənimsəmiş olan bəzi “heavy metal” və “black metal” musiqi qruplarının konsertlərində və ya video kliplərində görmək mümkündür. Məsələn, satanist-faşist musiqi qruplarının ən tanınmışlarından biri olan İngilis "Cradle of Filth" (Pislik yatağı) adlı qrup, bütün mövzularını pislik, iyrənclik və qaranlıq üzərinə inşa edir. Qrupun video klipləri, yeri palçıq və qətran örtülü, divarları qan və murdarlıq axan, qaranlıq və rütubətli yerlərdə çəkilir. Qrup üzvləri üzlərinə son dərəcə diksindirici və qorxunc makiyajlar edir, homoseksualizm və murdarlıq xatırladan paltarlar geyinirlər. Qrupun konsertlərində dinə təhqirlər edilir, dini kitablar tamaşaçılar tərəfindən cırılıb parçalanır.

Digər qrupun solisti və eyni zamanda Şeytan Kilsəsinin üzvlərindən olan Merilin Menson isə pərəstişkarlarına ailələrinə, cəmiyyətə və dini təşkilatlara hücum etmələri üçün məsləhətlər verir. Menson, 1995-ci ildə verdiyi reportajda soruşulan "təkamül haqqındakı düşüncələriniz nədir" sualına isə belə cavab vermişdir.

**Sosial darvinizmə inanıram, bu səbəbdən cəmiyyətin təkamülünə inanıram. Darvin nəzəriyyəsinə də inanıram ... amma yaradılış fikrinə və yaradılışı müdafiə edənlərə qapalıyam. Mənim üçün bir şey ifadə etmir.** [28]

Satanizm və faşizmin ortaq dəyərlərindən biri də yevgeni nəzəriyyəsidir. Şikəst və xəstə insanların cəmiyyətdən təmizlənməsi və sağlam fərdlərin cütləşdirilərək çoxaldılmasını nəzərdə tutan yevgeni nəzəriyyəsi, xüsusilə Nazi Almaniyasında tətbiq edilmişdir. Yevgeni nəzəriyyəsinə görə, necə sağlam heyvanlar bir-birləriylə cütləşdirərək yaxşı heyvan cinsləri əldə edilirsə, bir insan irqi də islah edilə bilər. İnsan irqinin islah edilməsinə mane olan ünsürlər isə (şikəstlər, xəstələr, ağıl xəstələri kimi ...) cəmiyyətdən təmizlənməlidir. Nazi Almaniyasında bu yanlış məntiqə uyğun olaraq on minlərlə irsi xəstə və ağıl xəstəsi insan mərhəmətsizcə öldürülmüşdür.

Satanizm də eyni qorxunc cinayətləri müdafiə edir. Satanistlərin yevgeniyə baxış bucaqları öz qaynaqlarında bu şəkildə yer alır:

Satanistlər həmçinin yevgeni nəzəriyyəsinin tətbiqinə keçərək təbiət qanunlarının inkişaf etdirilməsi üçün yollar axtarırlar ... Bu, qabiliyyətli insanları dəstəkləyərək, gen hovuzunu insanlığın daha sürətli inkişafını təmin edəcək şəkildə inkişaf etdirilməsidir. Bu, dünya səviyyəsində ümumi olaraq tətbiq olunan üsuldur ... Genetik kodlar və soyumuzu davam etdirəcək olanları seçmə imkanımız olana qədər satanistlər ən yaxşıların ən yaxşılarla birləşməsini müdafiə edirlər. [29]

## Satanizm və kommunist ideologiya

Satanizmin qaranlıq dünyasının bir başqa ünsürü, kommunist ideologiyadır. Ötən əsr ərzində təxminən 120 milyon insanın həyatına son qoymuş olan kommunizm[30], özlərini satanist olaraq təyin edən ideoloqlar tərəfindən çıxarılmışdır.

Kommunizmin qurucusu olan **Karl Marksın** həyatı bu mövzuda maraqlı bəzi işarələr verir. Marksın hər cür dini inanca şiddətlə düşmən olduğu bilinən həqiqətdir. Məhz bu düşmənçiliyin altında, Marksın satanist təlimlərlə olan əlaqəsi yatır. Vatikan Universitetindən məşhur tarixçi Məlekay Martin, bu mövzuda bu məlumatı verir:

*Gənclik dövrlərində Berlin Universitetində oxuyan Karl Henrix Marks, kin duyğusunu alovlandıran çox təhlükəli mərasim kimi bir növ satanizmə maraq göstərdi. O gündən sonra yazdığı şeirləri "Oulanem"ə həsr etdi. "Oulanem", şeytan üçün istifadə edilən mistik ad idi.* [31]

Sadəcə Karl Marks deyil, kommunizm tarixində əhəmiyyətli bir yerə sahib olan **Mixail Bakunin** də satanistdir. Bakunin anarxizmin banisi olaraq bilinir və anarxizm, kommunizmin radikal versiyasından başqa bir şey deyil. Dövləti, dini, ailəni və hər cür ictimai dəyəri yox etməyi məqsəd qoyan anarxist ideologiyanı düstur edən Bakunin,

ilhamını satanizmdən almış və bunu açıq şəkildə ifadə etmişdir. Şeytanın Allaha olan üsyanını, kommunistlərin dinə, dövlətə və cəmiyyətə olan üsyanına bənzədən Bakunin, **"İblis, bütün inqilabçıların qabaqcılı və yol göstəricisidir"** deyə yazmışdır. [32]

Bu gün satanistlərin internet saytlarında və nəşrlərində Bakuninin sözləri təriflənərək çatdırılır və beləcə Bakunin tərəfindən yaradılan anarxist-kommunist ideologiyanın təbliğatı aparılır. Məsələn, **"Satanist Qırmızılar"** (Satanic Reds) adlı bir internet saytında, "satanizm-kommunizm" ideologiyası açıq şəkildə müdafiə olunur və belə deyilir:

*Niyə Qırmızılar? Ah, bu qorxunc ad! Qırmızı hər zaman "radikallıqla" eyni mənalı olmuşdur. Gerçək kommunist ölkə olan* ***Sovetlər Birliyi, Satanist İncilin dövlət qulluqçuları tərəfindən oxunduğu və üstəlik muzeyə yerləşdirildiyi tək ölkədir.*** [33]

Bəhs etdiyimiz "Satanist Qırmızılar" qrupunun emblemi, satanist ulduz içində oraq-çəkic simvoludur. Qrup, **"Baş katib, komissar və proletariat"** şəklində təşkilatlanmışdır və bu quruluş saytda açıqlanır. Həmçinin qrupun internet saytlarında kommunist ideologiyanı müdafiə edən, hətta kommunizmin ən qanlı diktatorları olan Stalin və Maonu tərifləyən məqalələr yer alır. Məsələn, *"Stalin haqlı idi"* (Stalin Was Right) adlı bir məqalədə, 40 milyon insanı qətl etmiş olan bu böyük canini mədh edən və qətliamlarını haqlı kimi göstərən şərhlər var. [34]

## Vəlilər, müəllimlər və ictimai alimlərə çağırış

Satanizmin qaranlıq təlqinlərinin təsiri altında qalan gənclər ilk əvvəl nə qədər böyük təhlükəyə qarışdıqlarının fərqində olmaya bilərlər. "Sərbəst yaşamaq", "qaydalara qarşı çıxmaq", "tək başına həyatda qala bilmək" kimi təlqinlərlə bu bəlanın içinə çəkilən gənc insanlar, haqqında bəhs etdiyimiz ideologiyanın həm ətraflarına, həm özlərinə fəlakət gətirən ideologiya olduğunu dərhal analiz etməyə bilərlər. Maraqlı, sirli və yeni bir dünya ilə tanış olduqlarını düşünüb bir anda özlərini bu axına qapdıra bilərlər. Bu səbəblə gənclərin satanizm mövzusunda əhatəli olaraq məlumatlandırılmaları və maarifləndirmələri zəruri əhəmiyyət daşıyır.

Buraya qədər araşdırdığımız məlumatlar, "satanizm bəlası haradan çıxdı" deyə düşünən valideynlər, müəllimlər və ya sosioloqlar üçün yol göstərici olmalıdır. Əgər bir cəmiyyətdə insanlara, "siz meymunlardan təkamül keçirmiş heyvan növüsünüz" deyilirsə, bu böyük yalan qəzetlərdə, jurnallarda, dərs kitablarında, saxta "elmi" qaynaqlarda israrla təkrarlansa, o cəmiyyətdə satanizm və ya buna bənzər vəhşi ideologiyaların inkişafı da

son dərəcə normal olar. Bu gerçəyin əhəmiyyətlə nəzərə alınması və təhsil sisteminin, mədəni və ictimai siyasətlərin buna görə təyin olunması lazımdır. Əks halda, satanist ruhi xəstəlik halında günahsız insanları öldürən gənclərə “niyə cinayət işlədin” deyə soruşulduğunda, onlar da “çünki vəhşi heyvanlar öldürmək üçün yaşayar, mən də vəhşi heyvanam” cavabını verəcəklər.

Buna görə satanizmə qarşı aparılacaq fikri mübarizədə birinci addım, bu azğın axını ideologiya olaraq bəsləyən qaynaqların qurudulması olmalıdır. Bunun üçün də edilməli olan, başda darvinizm olmaqla bu ideologiyaların səhvlərinin və yalanlarının ifşa edilməsidir. Ancaq bununla yanaşı, gənclərin mənəvi cəhətdən də şüurlandırılması tələb olunur. Allahın bütün kainatı yoxdan var etdiyini bilən, Allaha qarşı məsuliyyətlərinin fərqində olan, öldükdən sonra təkrar dirildiləcəyinin və dünyada keçirdiyi hər anın hesabını verəcəyinin şüurunda olan bir insanın hər hansı azğınlığa düşməsi, özünə və ətrafına zərər verəcək fəaliyyətlərdə olması mümkün deyil.

# Satanist əxlaq

Buraya qədər üzərində dayandığımız kimi, satanizm, hər cür dini və əxlaqi dəyəri rədd edən, İlahi dinləri xatırladacaq hər cür fakta qarşı çox böyük düşmənçilik bəsləyən, din əxlaqında bildirilən hər cür gözəl xüsusiyyətin tam tərsini etməyi özünə hədəf qəbul edən və bunları edərkən də şeytana qulluq etdiyini iddia edən azğın təlimdir.

Satanistlər, islam, xristianlıq və yəhudilik kimi ilahi dinlərdə əmr edilən sevgiyə, şəfqətə, doğruluğa, dürüstlüyə əsaslanan; yalan danışmağı, oğurluğu, öldürməyi, insanlara zərər verməyi qadağan edən əxlaqa tamamilə qarşıdırlar. Satanizm haqq dinlərdəki bütün günahları işləməyi guya ucalıq, bir növ üstünlük olaraq görür, bu səbəbdən də tərəfdarlarını bu günahları işləməyə təşviq edər. Bu azğın təlimə görə əsl olan, kin, qəzəb, intiqam kimi hisslərdə və pislikdə sərhəd tanımaz olmaqdır.

Quranda şeytanın arxasından gedən şəxslərin vəziyyəti "**...şeytanın təqibinə məruz qaldı, axırda da azanlardan oldu"** (Əraf surəsi, 175) şəklində bildirilir. Digər ifadəylə bu kəslər, şeytanla birlik olmanın nəticəsində nəfslərinin əsiri olmuşlar və həyatları hər cür ifrat və azğınlıqla doludur. Ayələrdə şeytanla əlaqəyə girən insanların xüsusiyyətləri bu şəkildə xəbər verilir:

**Şeytanların kimə nazil olduqlarını sizə xəbər verimmi? Onlar hər bir yalançıya və günahkara nazil olarlar. Şeytanlar vəhydən eşitdiklərini kahinlərə təlqin edirlər. Halbuki onların əksəriyyəti yalançıdır! (Şuəra surəsi, 221-223)**

Həmişə şeytana qulaq asan və şeytanın əxlaqını yaşayan satanistlər, cəhənnəm həyatını da bir növ ideal model olaraq qiymətləndirirlər. Bu səbəblə satanistlərin yaşadıqları yerlər qaranlıq və rütubətli olur. Estetika anlayışları cəhənnəmin vəhşiliyini və dəhşətini xatırladacaq şəkildə, qan və şiddətin görüntüsü üzərinə quruludur. Həsrətini duyduqları cəmiyyət quruluşu da, bu əxlaqın gərəyi olaraq, cəhənnəm xalqının yaşayacağı quruluşdur. Satanist əxlaqın yaşanması vəziyyətində kimsənin kimsəni həqiqətən sevmədiyi, kimsənin kimsəyə etibar etmədiyi, həyatın hər sahəsində narahatlığa və dəhşətin yaşandığı, xəyanətin və vəfasızlığın hakim olduğu, fahişəliyin, oğurluğun, adam öldürmənin, işgəncənin, qırğınların və min cür cinayətin yayılmış olduğu, bədbəxtliyin və ümidsizliyin bütün insanları əhatə etdiyi cəmiyyət ortaya çıxacaq.

Bu nöqtədə satanistlərin yanıldıqları əhəmiyyətli bir mövzu daha vardır. Satanistlər cəhənnəmi istədiklərini dediklərində bu, onların cəhənnəmin necə bir yer olduğunu bilməmələrindən, cəhənnəmi zehinlərində tam mənası ilə canlandıra bilməmələrindən qaynaqlanır. Allah Quranda bizə cəhənnəmin necə qorxunc və dəhşətli bir yer olduğunu

təfərrüatları ilə bildirmişdir. Cəhənnəm o qədər dəhşətli bir yerdir ki, cəhənnəmi görən, hətta uzaqdan uğultusunu duyan insanlar ondan qoruna bilmək üçün yalvarmağa başlayarlar. Cəhənnəm əzabını dadan kəslər, Rəbbimizə, özlərini cəhənnəmdən çıxarması üçün dua edərlər. Əgər özlərinə imkan verilsə, dünya həyatında işlədikləri cinayətləri bir daha əsla işləməyəcəklərinə dair and içərlər. Ancaq o gün artıq peşman olmaq üçün çox gecdir. Ayələrdə belə buyurulmuşdur:

**Onlar Cəhənnəm odunu uzaq məsafədən gördükdə belə onun necə qəzəblə qaynamasını duyacaq və xışıltısını eşidəcəklər. Onlar əlləri boynunda bağlı halda Cəhənnəmin dar bir yerinə atıldıqları zaman ölüm diləyərlər. Onlara deyilər: "Bu gün özünüzə bir ölüm deyil, çoxlu-çoxlu ölümlər istəyin!" (Furqan surəsi, 12-14)**

**Odun üzərində dayandırıldıqları vaxt onların: "Kaş ki, bizi dünyaya qaytaraydılar! Onda biz Rəbbimizin ayələrini yalan saymayıb möminlərdən olardıq" - dediklərini görəydin! (Ənam surəsi, 27)**

Yaxşı, bir insan necə olur ki, belə həyatın ideal həyat tərzi olduğuna inanır? Bu sualın cavabı isə, satanistlərin həyata baxış bucaqlarında gizlidir:

1. Satanistlər heç bir şeyə və heç kimə qarşı məsul olmadıqlarına inanırlar. Heç kimsənin özlərinə doğruları göstərə bilməyəcəyini, öz doğrularına ancaq özlərinin qərar verə biləcəklərini iddia edirlər. (Halbuki onlar da şeytanın ilhamı ilə qərar verirlər.) Bir satanist üçün tək məsuliyyət öz nəfsinə qarşıdır. Bu səbəblə də nəfsinin hər cür azdırıcı əmrini yerinə yetirər. Yalandan, kin tutmaqdan, intiqam almaqdan, insanlara və özünə zərər verməkdən zövq alar. Fiziki olaraq pis, rütubətli, cəhənnəmə bənzər ortamlardan zövq alar. Mətbuata əks olunan satanist toplantı yerləri və ayinlər, satanist musiqi ilə məşğul olan qrupların fiziki görünüşləri, satanist əxlaqın əhəmiyyətli nümunələridir. Satanistlərin bu tərz həyatdan zövq almaları, pisliyi, vəhşiliyi, şiddəti və rütubəti seçimələri də Allahın bir ayəsidir. Allah Ənam surəsində **"... şeytan da onlara etdikləri əmlləri (bəzəkli) göstərdi." (Ənam surəsi, 43)** şəklində buyurur. Yəni şeytan onlara bu etdikləri pislikləri gözəl və cazibədar göstərərək, onları böyük yalanın içinə salır, bu şəkildə onları Allahın yolundan uzaqlaşdırır.

2. Satanizm nəfsin məmnunluğu üzərinə quruludur. Onsuz da nəfsin məqsədi də şeytanın əmrlərini yerinə yetirmək, bu şəkildə onu razı etməkdir. Yalnız nəfslərinin istəklərinə görə yaşamaq istədiklərini və bunu da "azadlıq" olaraq gördüklərini ifadə edən satanistlər üçün, narkotik, spirt, fahişəlik, oğurluq kimi əxlaqsızlıqlar həyat şəkli halını almışdır. Mətbuatda bəhs edilən xəbərlərdə də gördüyümüz kimi bu əxlaqsızlıqlar çox zaman daha irəli ölçülərdə da yaşanır. Məsələn, satanistlər təcavüz, kiçik uşaqlara istiqamətli cinsi təcavüzlər, müxtəlif heyvanların əziyyət edilərək qətl edilməsi, öz

qanlarının, ya da qətl etdikləri heyvanların qanlarının içilməsi kimi iyrənclikləri sanki qürur içində açıqlayarlar. Eyni məntiqlə cinayəti də qanuni görərlər. Allahın Bəqərə surəsində bildirdiyi kimi, şeytan onlara **"... çirkin həyasızlığı ..." (Bəqərə surəsi, 268)** əmr edir, onlar da bu əmri laqeydliklə yerinə yetirirlər. Allah insanları şeytanın yalanlarına qarşı Nur surəsində də bu şəkildə xəbərdar edər:

**Ey iman gətirənlər! Şeytanın izi ilə getməyin. Kim şeytanın izi ilə getsə, bilsin ki, o şeytan iyrənc və yaramaz işlər görməyi əmr edir. Əgər Allahın sizə lütfü və mərhəməti olmasaydı, sizdən heç kəs heç vaxt təmizə çıxmazdı. Lakin Allah istədiyini təmizə çıxardır. Allah Eşidəndir, Biləndir. (Nur surəsi, 21)**

3. Satanistlərin ən diqqətə çarpan xüsusiyyətlərindən biri də üsyankar xarakterləridir. Onlar başda din əxlaqı olmaqla, cəmiyyətin nizamını meydana gətirən hər cür qaydaya qarşıdırlar. Onsuz da qaydaların yıxılmaq üçün yazıldığını bir-birlərinə təlqin edərlər. Bu üsyanları ailə içində başlayır, məktəbdə, yoldaşlarının ətraflarında davam edir. Heç bir qaydaya tabe olmaq istəməz, hər zaman problem çıxaran, problemli insanlar olarlar. Şeytanın ən əhəmiyyətli xüsusiyyətinin üsyan olduğunu, özlərinin də üsyançı şəxsiyyətləriylə tanınmaları lazım olduğunu ifadə edərlər.

Şeytan, insan nəfsindəki nifrət, intiqam, ehtiras, qəzəb, şiddət və şəhvət kimi duyğuları, bu insanlara öz yolunda xidmət etdirmək üçün istifadə etdirir. Allah Məryəm surəsində, **"Məgər kafirlərin üstünə onları günaha sövq edən şeytanları göndərdiyimizi görmürsənmi?." (Məryəm surəsi, 83)** şəklində bildirir, şeytanın Allahın zikrindən uzaq olan inkarçıları "davamlı təhrik edib", pisliyə sövq etdiyini xəbər verir. Dövrümüzdə satanizminin qurucusu olaraq qəbul edilən Anton Lavey də, "*Satanic Bible"* (Şeytan İncili) adlı kitabında satanizmin təməl prinsiplərini çatdırarkən, davamçılarına pisliyi istədikləri kimi yaşamaları və yaymalarını təlqin edir. Hətta onunla aparılan reportajda Lavey, **"Qanunların qəti olaraq pozmaq üçün qoyulduğunu hiss edirəm ... Küçədə birini qarət etməkdə heç bir səhv görmürəm"** deyir.[36] Laveyin bu sözlərini, kitabın ilk hissəsində üzərində dayandığımız sosial darvinist yanaşma ilə açıqlamaq mümkündür. Çünki satanizm materialist və darvinist təlimdir və bu düşüncəyə görə şiddət, təbiətin özündə vardır, qaçınılmazdır. Bu axmaq inanca görə insanın təbiətində onsuz da var olan şiddət sərhədsiz yaşanmalı, insan özünə heç bir məhdudiyyət qoymamalıdır. Bu şiddətin qarşısını almaq və ya qarşısını almağa çalışmaq insanın təbiətinə ziddir və bunu əngəlləmək mümkün deyil. Məhz bu səbəblə də insan və cəmiyyət düşməni olan satanizm insanlığa böyük bir xaos və nəticəsində də şiddətli yıxım gətirər.

Üstəlik, təbiətdə satanistlərin qarşıya qoyduqları kimi davamlı qarşıdurma yoxdur. Canlıların balalarının həyatda qalmalarını təmin edə bilmək və ya öz icmalarının fərdlərini

qoruya bilmək üçün göstərdikləri fədakarlıqlar fövqəladədir. Bu fədakarlıqlar çox vaxt satanistlər və darvinistlər tərəfindən gözardı edilir. Satanistlərin qarşıdurmanı zərurətmiş kimi göstərmələri böyük yalandır. İnsanlar və cəmiyyətlər varlıqlarına zidd düşərək deyil, həmrəylik ilə, həmişə birlikdə davranaraq davam etdirərlər. Qarşıdurma və şiddət isə o cəmiyyətin sonu deməkdir.

4. Satanizm, sosial darvinist düşüncənin gərəyi olaraq, zəiflərə, ehtiyac içində olanlara və yaşlılara hörmət və mərhəmət etməz. Onları ortadan qaldırılmalı olan "parazitlər" kimi qiymətləndirər. Sevgi, şəfqət, mərhəmət və fədakarlıq kimi xüsusiyyətləri zəiflik olaraq xarakterizə edərlər. Bu gözəl xüsusiyyətlərin din əxlaqını ağıla gətirməsi satanistlərdə çox böyük narahatlıq meydana gətirər. Satanistlərə görə, insan həyatını davam etdirə bilmək və həyatda qala bilmək üçün hər cür pisliyə üz tuta bilər. Satanizm bütün bunları qanuni görür. Bunun səbəbi, daha əvvəl də üzərində dayandığımız kimi, darvinist düşüncənin nəticəsi olaraq "həyatın vəhşi arena" olduğu və yalnız güclü olanların yaşaya biləcəyi istiqamətindəki səhv anlayışdır. Satanizmdəki təcavüzkar və zalım xarakterin təməlində də bu anlayış yatır. Bu səbəblə də satanizm cəmiyyətin faydasını və insanlığın faydasını qətiyyən düşünməz, fərdilik üzərinə quruludur. "Əgər bir şey sənə fayda verirsə bunu et, əgər sənə deyil, başqasına fayda verirsə, bunun üçün səy sərf etmə" yanaşmasını müdafiə edər. Bu yanaşmanın nəticəsi isə eqoist, insafsız, insaniyyətsiz, zalım və mərhəmətsiz kəslərdən ibarət olan cəmiyyətdir. Anton Lavey aşağıdakı sözlərlə dilə gətirdiyi ideal cəmiyyət nizamı, satanizmin müdafiə etdiyi mərhəmətsizliyi vurğulaması baxımından olduqca diqqət çəkicidir:

İdeal olaraq **heç bir qaydanın və nizamın olmaması lazımdır** ki, onun sayəsində ov olanlar ov olacaqlarını biləcəklər və ovçular da ovçu olacaqlarını biləcəklər. Məhz bütün məsələ budur. İnsanların, yəni bu dünyanın **insan heyvanlarının** bir az daha çox şüura sahib olmaları, insanlığın bir parça təkmilləşə bilməsində ya da bir parça irəliləməsində böyük rol oynayacağını düşünürəm....[37]

Laveyə görə bir növ heyvanlar kütləsi olan cəmiyyətdə, heç bir qayda və heç bir nizam olmamalıdır. Cəmiyyəti "ovlayanlar" və "ov olanlar" olaraq iki sinifə ayıran Laveyin nəzərdə tutduğu bu həyat stilində, cəmiyyət içindəki hər cür əlaqəni də ovlanmaq anlayışı müəyyən edəcək, eynilə vəhşi bir arenada yaşanırmış kimi ...

Heç bir qaydanın tanınmadığı bu cəmiyyətdə nizamın necə təmin ediləcəyi isə satanizmin vəhşi üzünü göstərən başqa nümunədir. Türkiyədə fəaliyyət göstərən satanist bir qəbilə lideri, satanizmin bu mövzudakı şərhini belə açıqlayır:

*.. Bu qayda (nə istəyirsənsə onu et qaydası), 18-ci əsrin əvvəlindən bəri yavaşlamış olan insan təkamülünü sürətləndirə bilər. Çünki tamamilə azad buraxılan insan ağrını daddığı təqdirdə, hər hansı bir təzyiq olmadan öz özünü məhdudlaşdıracaq.* [38]

Əslində satanistlərin qayda və qanun düşmənçilikləri çox ağılsızcadır, çünki nizamsız və qanunsuz bir cəmiyyət onların da əleyhinə olacaqdır. Cəmiyyətlərin varlığını davam etdirmələri üçün zəruri olan hüzur və sabitlik dövlətin varlığı və dövlətin qoyduğu qanunların tətbiq olunması ilə təmin olunur. Din əxlaqı da dövlətə itaəti tələb edir. İnsanların digərlərinə qarşı mərhəmət etmədən cinayət işlədikləri cəmiyyət quruluşunda, bu quruluşu ağılsız bir şəkildə müdafiə edən satanistlər də “ov” halına gələcək və əzab çəkəcəklər.

Tarix bunun nümunələri ilə doludur. Terroru və qan tökməyi müdafiə edən hər kəs, nəticədə o terrorun və zorakılığın hədəfi halına gələr. Fransız inqilabında on minlərlə insanı gilyotinə göndərən Yakobin liderlərin hamısının, nəticədə öz başlarını da gilyotinə təslim etmələri kimi ... Satanistlər də, müdafiə etdikləri bu məntiqsiz fikirlərlə, həm dünyaya, həm də özlərinə gətirəcək fəlakəti alovlandırırlar.

5. Lovğalıq və təkəbbür satanizmdə təşviq edilən və mütləq sahib olunmalı xüsusiyyətlərdir. Bu səbəblə də satanistlər özləriylə eyni fikiri paylaşmayan bütün insanları saf və axmaq olaraq xarakterizə edər, ən ağıllı, ən məntiqli, ən ayıq və ən müvəffəqiyyətli olaraq özlərini görərlər. Halbuki arzu etdikləri bu böyüklük ehtirasına, **"... Allahın ayələri barəsində mübahisə edənlərin ürəklərində böyüklük iddiasından başqa bir şey yoxdur." (Mömin surəsi, 56)** ayəsində də buyrulduğu kimi, heç bir zaman çatmaları mümkün deyil. Bu tip batil cərəyanlara uyaraq böyüyəcəyini sananlar hələ əvvəldən itirməyi və alçaldılmağı qəbul etmişlər. İzzəti, etibarı bu azğın təlimdə axtaranlar çox böyük səhvin içindədirlər. Çünki gerçək izzət və şərəf ancaq Allah yanındadır.

Allaha səmimi qəlblə özlərini təslim edən, iman yolunun tək qurtuluş olduğunu bilən, həyatlarının hər anını ən gözəl əxlaqı göstərərək keçirmə mövzusunda qərarlı olanlar bu izzət və şərəfə sahib olan möminlərdir. Allah iman gətirənləri Quranda belə müjdələyir:

**Şübhəsiz ki, iman gətirib yaxşı işlər görənlər məxluqların ən yaxşısıdırlar.Onların Rəbbinin yanındakı mükafatı ağacları altından çaylar axan, içində əbədi qalacaqları Ədn bağlarıdır. Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Bu nemətlər, Rəbbindən qorxan kimsələrdən ötrüdür!. (Beyyinə surəsi, 7-8)**

## Satanizmin insanı apardığı qorxunc son

Satanizm deyildiyi zaman insan ağlına gələn şeylər, şeytani ayinlər, şeytana həsr olunan heyvanların qətl edildiyi mərasimlər, qara cadu və qan içmə kimi insan təxəyyülünü zorlayan azğınlıqlardır. Şeytani ayinlər satanizmin ayrılmaz hissəsidir. Hər nə qədər şeytani mərasimləri müəyyən başlıqlı maddələr altında yığmaq mümkündürsə də, hər ölkədəki satanist qruplar öz anlayışlarına görə fərqli ayinlər nizamlayarlar. Satanistlərin öz kitablarında, jurnallarında, internet saytlarında, satanist musiqi qruplarının mahnı sözlərində bu mərasimləri bütün açıqlığıyla görmək mümkündür.

Yeni satanist olan birinə bu mərasimlər yavaş-yavaş öyrədilir. Tək başlarına ikən belə şeytanla əlaqəyə keçmək üçün ayinlər keçirmələri tövsiyə edilir. Satanist saytlardan birində yeni satanist olan birinə, "Qaranlıq güclərin səninlə əlaqəyə keçdiklərini düşündüyün anda qorxma və təşvişə düşmə... Qaranlıq qüvvələrə onların layiq olduqları hörmət və dekorasiya ilə yaxınlaş, ayinlər bunun üçündür; onlarla əlaqə qura bilmək üçün..." kimi insanları azdırmaq üçün məsləhətlər yerləşir.[39] Satanist ayin isə bu şəkildə təsvir edilir:

*... Təsirli ayin keçirə bilmək üçün Laveyin kitabında göstərilən bütün vəsaitləri tapmağın şərt deyil. Bəlkə qılınclar, ayin qədəhləri, qara iplər, zəng kimi vəsaitləri alacaq pulun olmaya bilər və ya onları təmin edə biləcəyin mağaza tapmaya bilərsən. Amma yenə də ayin keçirə bilərsən ... (Qara) şamı yandır və önünə otur ... Şamın işığına baxaraq,* ***"Hazıram Qaranlıqların əfəndisi, gücünü içimdə hiss edirəm və həyatımı şərəfləndirməni istəyirəm. Mən şeytanın tərəfdarlarından biriyəm. Yaşasın şeytan",*** *deyə ona səslən... Bu şeytanı həyatına daxil etmənin sadə yoludur.* [40]

Satanistlərin ayinlərdə qan tökməyə xüsusi əhəmiyyət vermələri isə, şeytanın insanlıq üzərindəki planının simvolik ifadəsidir. Şeytan, böyük nifrətlə baxdığı insan nəslinə əlindən gəldiyi qədər əzab çəkdirmək istəyir. Bu səbəblə dünyada qan tökülməsini özünə məqsəd olaraq təyin etmişdir. Və satanistlər də şeytanın bu əmrinə əməl edir, qan tökməyi açıq ritual şəklində tətbiq edirlər.

Satanist ayinlərin əsas vəsaitləri baltalar, qılınclar, iplərdir. Qan rəngi olan qırmızı və qaranlıq gücləri simvollaşdıran qara rəngləri isə bu ayinlərin ayrılmaz hissəsidir. Satanistlərin tükləri ürpərdən ayinlərindən biri də heyvanların və daha sonrakı mərhələdə insanların öldürülərək, şeytana adanmalarıdır. Satanist ayinlərində pişik, keçi kimi heyvanların qətl edilməsi çox vərdiş edilmiş hadisədir. Daha sonra bu heyvanların qanı qədəhlərə doldurulub içilir. Çünki satanistlər, bu qanla əldə edilən enerjinin ritualları idarə edən və bu rituallara qatılan kəslərin gücünü artıracağını düşünürlər. Kimin qətl ediləcəyinə necə qərar veriləcəyi isə olduqca bəsitdir: Hər hansı satanistə qarşı onun xoşlanmayacağı bir şey etmiş, onu narahat etmiş olan kəs bu rituallarda qətl edilmək üçün idealdır. [41]

Öldürməyi və qətl etməyi şeytana bağlılığın şərti olaraq görən satanistin etdiyi şərhlər isə, satanizmin insanları necə əxlaqın içinə sürüdüyünü açıq şəkildə göstərir:

*... Şeytana olan bağlılığımız üçün 4-5 dəfə keçi öldürdüm ... İnsan öldürməyə gəldikdə, əvvəlcə öldürüləcək insanın şəxsən şeytan adına özünün qurban edilməsini istəməsi lazımdır. Ancaq* ***bu şərtlər altında mən birini öldürərəm.***[42]

Satanist ayinlərin ən dəhşət verici istiqamətlərindən biri də, bu ayinlərdə yalnız heyvanların deyil, insanların da canlarına qəsd edilməsidir. Bu mərasimlər əsnasında təcavüzə uğrayan gənc qızlar olduğu, rituallar üçün zəruri qanın olması məqsədiylə insanların belə öldürüldüyü bilinən hadisələrdəndir.

Çox vaxt da satanizmin vəhşiliyi insanın öz canına qəsd etməsi kimi sonrakı mərhələyə qədər gedib çıxır. Satanizmin insanlar üzərində meydana gətirdiyi mənəvi boşluq və ruhi qeyri-sabitlik, insanın bu ağıldankənar təlimlər uğruna intihar etməsinə səbəb olur.

Necə ki, satanistlər həyat haqqında çoxlu yanılmaya sahiblərsə, ölümə və ölümdən sonrasına dair fikirləri də bir çox azğınlıq ehtiva edir. Bəzi satanistlərə görə intihar, dünyada həsrətini duyduqları cəhənnəm həyatına bir an əvvəl qovuşmaq, bəzilərinə görə isə guya cəsarətlərini və üsyanlarını isbat etdikləri bir növ "gövdə nümayişidir". Halbuki ölüm, bəzi satanistlərin sandığı kimi, inkar edənlər üçün qurtuluş deyil, daha çətin və əzablı, üstəlik sonsuz həyatın başlanğıcıdır. Eyni şəkildə intiharı bir növ "etiraz" olaraq görənlər də böyük səhvə düşmüşlər. Üstəlik, Allah bir insanın öz canına qəsd etməsini qəti olaraq qadağan etmişdir.

Məhz bütün bunlar şeytanın insanı çatdırmaq istədiyi qorxunc sonun nümunələrindəndir. Satanizmə özünü qapdıran insan, eynilə şeytanın istədiyi kimi, hər cür insani məziyyətini itirmiş, vəhşi, təcavüzkar, heyvana bənzər hal almışdır. Dünya həyatındakı bütün müvəqqəti bəzəklərin, şeytanın vədlərinin sınaq olduğunu fərq edə bilməmiş və bu yanlış zənlərin qarşılığını artıqlaması ilə almışlar. Allah Səba surəsində bu vəziyyəti bizlərə belə açıqlayır:

**İblisin onlar barəsindəki ehtimalı doğru çıxdı. Bir dəstə mömindən başqa, qalanları onun toruna düşdülər. Halbuki o, bu insanlar üzərində ixtiyar sahibi deyildi. Biz ancaq axirətə inananla ona şəkk gətirən kimsələri ayırd etmək üçün şeytana belə bir fürsət verdik. Sənin Rəbbin hər şeyi mühafizə edəndir. (Səba surəsi, 20-21)**

Üstəlik, bu sadəcə dünya həyatındakı sonlarıdır. Allahın zikrindən üz çevirmələri, İlahi dinlərə qarşı savaş açmaları, insanları şeytana qulluq etməyə çağırmalarının

qarşılığını Rəbbimizin Qatında şiddətli əzabla alacaqlar. Allah Quranda bu mövzuyla əlaqədar olaraq bu şəkildə bildirir:

**Şübhəsiz ki, şeytan sizin düşməninizdir, siz də onu düşmən sayın. O öz tərəfdarlarını Od sakini olmağa çağırır. (Fatir surəsi, 6)**

**Allaha and olsun ki, səndən əvvəl də ümmətlərə elçilər göndərmişdik. Şeytan isə o (kafir) ümmətlərin əməllərini özlərinə gözəl göstərmişdi. Şeytan bu gün də onların dostudur. Onlar üçün ağrılı-acılı bir əzab vardır. (Nəhl surəsi, 63)**

**Onlara: "Allahın nazil etdiyinə itaət edin!" – deyildikdə, onlar: "Yox! Biz əcdadımızın getdiyi yolu tutub gedəcəyik!" – deyərlər. Əgər şeytan onları Cəhənnəm odunun əzabına doğru sürükləyirsə, onda necə olsun? (Loğman surəsi, 21)**

**İnsanlardan eləsi də var ki, heç nə bilmədiyi halda Allah haqqında mübahisə edir və hər bir asi şeytana itaət edir. Onun haqqında belə yazılmışdır: kim şeytanla dostluq etsə, şeytan onu doğru yoldan çıxardıb alovlu Odun əzabına sürükləyər. (Həcc surəsi, 3-4)**

Ancaq cəhənnəm əzabıyla qarşılaşdıqlarında satanistlər daha bir təəccüb yaşayacaqlar. Dünya həyatında ardınca getdikləri, təlqinlərinə qulaq verib əmrlərinə itaət etdikləri, özlərinə vəli və dost olaraq gördükləri şeytan onlardan uzaqlaşmış və onları tək-tənha buraxmışdır. Şeytanın bu rəftarına şahid olan inkarçılar çox böyük peşmanlıq yaşayacaq, ancaq onlar üçün artıq dönüş olmayacaq. O gün onların tövbələri qəbul olunmaz, bütün əməllərinin qarşılığını əskiksiz olaraq alacaqlar. Allah bu insanların vəziyyətini ayələrdə bu şəkildə bildirir:

**Həmin gün zalım kimsə barmaqlarını dişləyərək deyəcəkdir: "Kaş ki, mən Peyğəmbərin yolunu tutub gedəydim! Vay halıma! Kaş ki, filankəslə dost olmayaydım! Çünki Zikr (Quran) mənə çatdıqdan sonra o məni ondan uzaqlaşdırdı". Həqiqətən, şeytan insanı tənha qoyub qaçandır. (Furqan surəsi, 27-29)**

# Nəticə
# Şeytanın hiyləsi zəifdir

Kitab ərzində bəhs etdiyimiz məlumatlar bir tərəfdən satanizmin nə qədər təhlükəli və dəhşət verici dünya görüşünə sahib olduğunu gözlər önünə sərərkən, bir tərəfdən də bu cərəyanın fikri dayaqlarını bizlərə göstərmiş oldu. Bütün bu məlumatlar əsasında varılacaq ən əhəmiyyətli nəticələrdən biri, satanizmin mənəvi dəyərlərin unudulduğu, din əxlaqının gözardı edildiyi, Allah qorxusunun və sevgisinin gərəyi kimi bilinib yaşanmadığı ictimai mühitdə böyüyüb inkişaf etdiyidir. Digər əhəmiyyətli nəticə də, satanizmin tək başına hüquqi tədbirlərlə sona çatdırılmayacaq cərəyan olduğu, belə cəhdin tam əksinə satanizmin daha da güclənməsinə səbəb ola biləcəyidir.

Elə isə satanizmə qarşı icra ediləcək mübarizəni bu təməl nöqtələrdə toplamaq mümkün olacaq:

1. Bu mübarizənin ən əhəmiyyətli istiqaməti, fikri sahədə olmalıdır. Fikrən məğlub edilmiş ideologiya, tərəfdarlarının sayı nə qədər çox olarsa olsun, nə qədər çox yerə yayılmış olarsa olsun məğlubiyyətə məhkum olmuşdur. Bu səbəblə, satanizmin müdafiə etdiyi fikrin məntiqsizliklərinin, azğınlıqlarının, səhvlərinin ifşa edilməsi son dərəcə əhəmiyyətlidir. Bəzəkli şüarların, ulduzlu təbliğatların cəfəng sözlərdən ibarət olduğunun göstərilməsi, həm satanizmin yeni tərəfdarlar qazanmasını əngəlləyəcək, həm də mövcud tərəfdarların böyük yalana qapıldıqlarını görmələrini təmin edəcək.

2. Fikri mübarizənin ən əhəmiyyətli mərhələsi, satanizmi ayaqda saxlayan tutan ideoloji təməllərin çökdürülməsidir. Arxalanacaq nöqtəsi qalmayan, təməlləri yıxılmış ideologiyanın ayaqda qalmayacağı açıqdır. Kitabın müxtəlif hissələrində də gördüyümüz kimi satanizmi ayaqda saxlayan iki əhəmiyyətli ünsürdən biri materialism, digəri də darvinizmdir. Darvinizm elmi olaraq çökmüş, yanlışlığı bir çox dəlil ilə isbat edilmiş olan ideologiyadır. Hansı ki, nəzəriyyənin bəzi kütlələr tərəfindən hələ saxta elmi nəzəriyyə kimi müdafiə olunması, böyük yalan olduğunun ifşa edilməməsi satanizm kimi azğın cərəyanların da varlığını davam etdirməsinə imkan yaradır. Bu vəziyyətdə mövzunu araşdırma imkanı tapa bilməyən, qulaqdan-qulağa məlumatlarla hərəkət edən kəslər darvinizmi hələ etibarlı cərəyan sana bilər, bu səbəbdən satanizmin də məqbul çıxış nöqtəsi olduğu səhvinə qapıla bilərlər. Belə bir səhvin önünə keçməyin tək yolu isə darvinizmin iflas etmiş ideologiya olduğunun insanlara çatdırılmasıdır.

3. Bunlarla yanaşı icra edilməli olan digər əhəmiyyətli iş də, insanların düşdükləri mənəvi boşluğun aradan qaldırılmasıdır. Həyatdakı varlıq məqsədini bilən, mənəvi cəhətdən şüurlu insan heç bir azğın cərəyanın təsiri altında qalmaz. Bunun üçün, başda gənclər olmaqla, insanlara Allahın varlığının və birliyinin dəlilləri ilə izah edilməli, hər

insanın etdiyi hər rəftardan Allaha qarşı məsul olduğu öyrədilməli və axirətdə qarşılaşa biləcəyi vəziyyətlərə qarşı insanlar xəbərdar edilməlidir.

4. Bütün bunlar edilərkən qəzet, jurnal və televiziya kimi kütləvi informasiya vasitələrinin bu işlərə dəstək verməleri və təhsil sisteminin də bu istiqamətdə təşkil edilməsi son dərəcə əhəmiyyətlidir. Mətbuat bu batil hərəkəti ictimaiyyətə çatdırarkən, bu cərəyanın təbliğatını etməməyə diqqət göstərməli, satanizmin bütün azğınlıqlarını ifşa edərək xalqı bu istiqamətdə məlumatlandırmalıdır. Təhsil sistemi də eyni şəkildə, həm gəncləri bu bəlaya qarşı xəbərdar etməli, həm də belə azğınlıqların təsirində qalmayacaq şəkildə şüurlu nəsillər yetişdirməlidir. Həyatın kor təsadüflərin əsəri olmadığını bilərək, Allahın gücünü və qüdrətini tanıyaraq, Quran əxlaqını öyrənərək böyüyən gəncin bu cür bəlanın içinə sürüklənməyəcəyi açıqdır.

Unutmamaq lazımdır ki, bəzi insanlar maraqdan, bəzi insanlar macəra olaraq gördüyündən, bəziləri də axtarışda olduqlarından bu azğın cərəyanın toruna düşürlər. Ancaq səbəbləri nə olursa olsun bu insanların təməldə mənəvi boşluq və məlumatsızlıq içində olduqları açıqdır. Bu vəziyyətdə satanizmlə ediləcək fikri mübarizədə, başda iman edənlər olmaqla, hər kəsə əhəmiyyətli məsuliyyət düşür. İman edənlər ilkin olaraq, **"Şübhəsiz ki, şeytan sizin düşməninizdir, siz də onu düşmən sayın. O öz tərəfdarlarını Od sakini olmağa çağırır." (Fatir surəsi, 6)** ayəsində bildirilən həqiqəti bütün insanlara çatdırmalı və onları bu vəziyyətə qarşı xəbərdar etməlidir. Bununla yanaşı insanların din əxlaqını öyrənmələri və Quran əxlaqının yayılması üçün ciddi səy göstərməlidirlər. Çünki Allahın izni ilə Quranın nuru, satanizm də daxil olmaqla bütün azğın cərəyanları yox edəcək, insanlara həsrətini çəkdikləri gözəl və xeyirli həyat gətirəcək.

# QEYDLƏR


1- http://www.cris.com/~Amon1/satanism/onaintro.html

2- Yaşar Nuri Öztürk, Kuran Açısından Şeytancılık, səh. 54

3- Aleister Crowley, A Legacy of Satanism, http://www.gothicpress.freeserve.co.uk/Aleister%20Crowley.htm

4- Gordon Melton, Encyclopedia of American Religions, Volume III, Triumph Bopoks, 1991, səh. 141-142

5- Blanche Barton, The Church of Satan, Hell's Kitchen Productions, 1991, səh. 79-88

6- A Description of Satanism, http://simon.crabtree.com/satanism/modern.html

7- Peter H. Gilmore, Satanism: The Feared Religion, A New Age; Essays on Current Religious Beliefs and Practices, Merrimac Books,1992

8- The Washington Post Magazine, 8 Fevral 1986

9- Rick Hall, Satan Really Wants You, SCREW, Nömrə 1, 548, 2 Noyabr 1998

10- Roald E. Kristiansen and Nikolay M. Terebikhin Arkhangelsk, Religion, Church and Education in the Barents Region, Russia: Pomor University Publishing House, 1997

11- www.churchofsatan.com/Pages/

MFInterview.html

12- Peter H. Gilmore, Satanism: The Feared Religion, A New Age; Essays on Current Religious Beliefs and Practices, Merrimac Books,1992

13- Anton Szandor Lavey, The Satanic Bible, 1969, səh. 25-33

14- Roald E. Kristiansen and Nikolay M. Terebikhin Arkhangelsk, Religion, Church and Education in the Barents Region, Russia: Pomor University Publishing House, 1997

15- A Description of Satanism, http://www.dpjs.co.uk/modern.html

16- http://www.fortunecity.com/emachines/e11/86/chimp.html

17- Stephen Jay Gould, Darwin ve Sonrası, Çev. Ceyhan Temürcü, Ankara: Tübitak, May 2000, səh. 282

18- http://www.brainyquote.com/

quotes/quotes/s/q141267.html

19- Roald E. Kristiansen and Nikolay M. Terebikhin Arkhangelsk, Religion, Church and Education in the Barents Region, Russia: Pomor University Publishing House, 1997

20- Burton H. Wolfe, Author and priest in the Church of Satan, Introduction of "The Satanic Bible", San Francisco, 25 Dekabr 1976

21- Peter H. Gilmore, Satanism: The Feared Religion, A New Age; Essays on Current Religious Beliefs and Practices, Merrimac Books,1992

22- Peter H. Gilmore, Satanism: The Feared Religion, A New Age; Essays on Current Religious Beliefs and Practices, Merrimac Books,1992

23- Roald E. Kristiansen and Nikolay M. Terebikhin Arkhangelsk, Religion, Church and Education in the Barents Region, Russia: Pomor University Publishing House, 1997

24- Aleister Crowley, A Legacy of Satanism, http://www.gothicpress.freeserve.co.uk/Aleister%20Crowley.htm

25- Theodore D. Hall, The Scientific Background of the Nazi Purification Program, http://www.trufax.org/avoid/nazi.html

26- A Description of Satanism, http://www.dpjs.co.uk/modern.html

27- Micheal Moynihan, Didrik Soderlind, Lords of Chaos, http://www.dpjs.co.uk/modern.html

28- An Interview with Marilyn Manson at the Capitol Ballroom, Washington D.C., 9 Noyabr 1995

29- Peter H. Gilmore, Satanism: The Feared Religion, A New Age; Essays on Current Religious Beliefs and Practices, Merrimac Books,1992

30- Komünist rejim ve örgütlerin toplam 120 milyon aşkın insanı katlettiği, dünyaca ünlü "Komünizmin Kara Kitabı" adlı eserde istatistiklerle açıklanmaktadır. Komünizmin Kara Kitabı, İstanbul: Doğan Kitapçılık, Mart 2000

31- Malachi Martin, The Keys of This Blood, səh. 200

32- Order Of The Left Hand Path, http://www.satanist.net/satan/Satanism/Olhp/Olhp.htm

33- Why do we call ourselves Red Satanics? FAQ, http://www.geocities.com/satanicreds/faq.html

34- Stalin Was Right, http://www.geocities.com/satanicreds/stalin-w-right.html

35- J. Gordon Melton, Encyclopedia of American Religions, Volume III, Triumph Bopoks, 1991, səh. 141-142

36- Birth of Tragedy, Issue Nömrə 4, Noyabr '86 - Yanvar '87

37- Birth of Tragedy, Issue Nömrə 4, Noyabr '86 - Yanvar '87

38- Tempo, 14-20 Fevral 2002, Sayı 7/740

39- http://www.churchofsatan.com/

Pages/Youthletter.html

40- http://www.churchofsatan.com/

Pages/Youthletter.html

41- Diyanet Avrupa, 15 Yanvar-15 Fevral, 2002, Buraxılış 34, sf. 33

42- Tempo, 14-20 Fevral 2002, Buraxılış 7/740

43- Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2

44- Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh.196

45- "New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, cild. 63, Noyabr 1982, səh. 1328-1330

46- Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7

47- Jeffrey Bada, Earth, Fevral 1998, səh. 40

48- Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, Oktyabr 1994, səh. 78

49- Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 189

50- Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184

51-B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.

52- Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179

53- Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133

54- Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197

55- Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 75-94; Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389

56- J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Dekabr 1992

57- Alan Walker, Science, cild 207, 1980, səh. 1103; A. J. Kelso, Physical Antropology, 1-ci nəşr, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272

58- Time, Noyabr 1996

59- S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30

60- Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19

61- Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Yanvar 1997, səh. 28

62- Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh.43

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq

inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını

yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

### XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış

fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

### Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri

xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə

*australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

### Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək

növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba.

Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

“Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. *(Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah’ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah’dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu

vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar**

**isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

Bu kitabda satanizm bütün istiqamətləriylə araşdırılmış, şiddəti və vəhşiliyi dini ritual halına gətirən və qanlı cinayətləri ibadət olaraq görən bu fəlsəfənin bu qədər yayılmasının səbəbləri vurğulanmışdır.

Kitab boyunca da gördüyümüz kimi satanizmin çıxış nöqtəsi din əxlaqına qarşı olmasıdır, bu səbəbdən bu azğınlığın tərəfdarları din əxlaqından uzaq yetişmiş və materialist cərəyanların təsiri altında qalmış kəslərdir. Satanizmin yayıldığı və xüsusilə də gənc insanlar üzərində təsirli olduğu gerçəkdir. Ancaq satanizmin həlli olmayan cərəyan kimi göstərilməsi də çox böyük səhvdir. Əslində bu azğın cərəyanla mübarizə aparmaq çox asandır və Quran əxlaqı gəncləri satanizmin əlindən xilas etməyin tək yoludur. Quranın nuru satanizmi yox edəcək və Allahın izni ilə işıqlı, sevgi və sülh dolu dünya quracaq.

**İş bitdikdə şeytan deyəcək: "Həqiqətən də, Allah sizə gerçək vəd vermişdi. Mən də sizə vəd vermişdim, lakin vədimə xilaf çıxdım. Mənim sizin üstünüzdə heç bir hökmranlığım yox idi. Mən sizi azğınlığa dəvət etdim, siz də dəvətimi qəbul etdiniz. Buna görə də məni yox, özünüzü qınayın. Nə mən sizin köməyinizə çata bilərəm, nə də siz mənim köməyimə çata bilərsiniz. Heç şübhəsiz ki, mən əvvəllər də sizin məni Allaha şərik qoşmağınızı rədd etmişdim". Həqiqətən, zalımlar üçün ağrılı-acılı bir əzab hazırlanmışdır. (İbrahim surəsi, 22)**